Xalqın qəzeti!

# Xalq qəzeti

№ 98 (30214) 12 may 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, 10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir. Qarabağ və Şərqi Zəngəzur dirçəlir.

## SOCAR ilə "Total Energies"in əməkdaşlığı davam edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də "Total Energies" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Nikolas Terrazı qəbul edib.**

Görüşdə SOCAR ilə "Total Energies" arasında uzun illər ərzində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. "Abşeron" qaz yatağında yaxın aylarda nəzərdə tutulan hasilatın başlanılması məsələsi müzakirə olundu.

Nikolas Terraz "Total Energies" şirkətinin Azərbaycanla əməkdaşlığa sadiqliyini və davamlı marağını vurğulayaraq, ölkəmizdəki fəaliyyətlərini genişləndirmək niyyətində olduqlarını bildirdi.

Söhbət zamanı ənənəvi neft və qaz sahəsində əməkdaşlıqdan əlavə bərpaolunan enerji istehsalı sahəsində də mümkün layihələr barədə fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***



## Birinci vitse-prezident Mehriban Əliyeva Şuşadan paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" hesabında Şuşadan paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident paylaşımda yazıb: "Dostumuzun ailəsində artım var".

## Birinci vitse-prezident Mehriban Əliyeva "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalından video paylaşıb



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" hesabında Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalından video paylaşıb.**

**AZƏRTAC paylaşımı təqdim edir:**
*"Şuşa, 2023*
*"Qarabağ kompozisiyası"*
*İfa edir: Türk dünyasının solistləri".*

## Azərbaycan–Ermənistan: Brüssel raundundan gözlənti varmı?



Səhifə ⇨ 3

## Çağırılmamış həmqonaqlar, deyəsən, Bakı kababı üçün darıxıblar

Səhifə ⇨ 3

## Qafqazda böyük tibb müəssisəsi – Yeni klinika

Səhifə ⇨ 10

# Zəfər zirvəsində böyük siyasətin uğur hesabatı

Səhifə ⇨ 4

## İlham Əliyev: Bu gün atamın ruhu şaddır




Səhifə ⇨ 4

## Hayların növbəti sülhdənqaçma oyunu



Səhifə ⇨ 6

## İqtisadi yüksəlişdə yeni rekord



Səhifə ⇨ 7

## Qara dənizdən Avropaya yeni enerji marşrutu



Səhifə ⇨ 7

## Ölkə iqtisadiyyatına investisiya qoyuluşu 21,1 faiz çoxalıb

Səhifə ⇨ 7

## Türkiyədə seçkilər: 14 maya 2 gün qalır

Səhifə ⇨ 9



## "Taxıl sazişi"nin müddəti uzadılmasa...



Səhifə ⇨ 9

## Türkiyə dünyada hərbi gücə çevrilir

Səhifə ⇨ 9

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm İlham Heydər oğlu!**
Əziz qardaşım!
Sizi və qardaş Azərbaycan xalqını mühüm tarixi hadisə – ölkənizin ümummilli lideri, görkəmli dövlət xadimi və siyasi xadim Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu unudulmaz gündə Azərbaycan xalqının dahi oğlu və əsl vətənpərvər şəxsiyyətin unudulmaz xatirəsini sonsuz qürur hissi ilə yad edərək, xüsusi vurğulamaq istərdim ki, Heydər Əliyev öz güclü iradəsi və nadir liderlik qabiliyyəti ilə müasir Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə və onun yeni dövlətçiliyinin təməlinin qoyulmasına, millətin birliyinə, həmrəyliyinə misilsiz töhfələr vermişdir.

Eyni zamanda, Özbəkistan ilə Azərbaycan arasında çoxşaxəli və uzunmüddətli münasibətlərin hərtərəfli inkişafı, dost və qardaş ölkələrimizin əlaqələrinin möhkəmləndirilməsi istiqamətində bu dahi şəxsiyyətin misilsiz xidmətlərini hər zaman yüksək ehtiram duyğuları ilə xatırlayacağıq.

Mübaliğəsiz qeyd etmək olar ki, bu əlamətdar yubiley münasibətilə Özbəkistanda Heydər Əliyevin mənalı həyat yoluna və örnək fəaliyyətinə həsr olunmuş çoxsaylı dəyirmi masalar, müxtəlif mədəni-maarif tədbirləri, elmi-bədii ədəbiyyatların nəşri özbək xalqının bu dahi şəxsiyyətə hədsiz ehtiramının parlaq ifadəsidir.

Hörmətli İlham Heydər oğlu!
Biz Zati-alinizi – möhtərəm atanızın başladığı şərəfli yolun layiqli davamçısını, ölkəsinin nüfuzunu beynəlxalq aləmdə böyük dərəcədə artıran və tarixi ədaləti bərpa edən mahir siyasi xadimi Özbəkistanın əsl dostu kimi tanıyırıq, həmçinin strateji tərəfdaşlığımızın yeni səviyyəyə yüksəlməsi üçün Sizin fəal səylərinizi tam dəstəkləyirik.

Xüsusilə və böyük məmnunluqla qeyd etmək istərdim ki, son zamanlar aramızda yaranan və möhkəm etimad ruhunda qurulmuş dialoqlarımız, cari ilin mart ayında Bakıda apardığımız açıq və səmərəli danışıqlarımız ikitərəfli və çoxtərəfli münasibətlərimizin inkişafına böyük təkan vermişdir.

Bununla yanaşı, yaxın gələcəkdə baş tutacaq ali səviyyədə səfərimiz zamanı əldə ediləcək mühüm razılaşmalar, əməkdaşlığımızın genişləndirilməsinə yönəlmiş daqiq layihələr və əməli proqramlar şübhəsiz ki, hərtərəfli əlaqələrimizi daha yüksək səviyyəyə qaldıracaqdır.

Atanız Heydər Əliyevin nurlu xatirəsinin qəlblərimizi işıqlandırdığı bu gündə Sizə və bütün ailə üzvlərinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh və əmin-amanlıq, davamlı tərəqqi və firavanlıq arzulayıram.

**Səmimiyyət və hörmətlə,**

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**
Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin. Mən onun 25 il əvvəl söylədiyi sözləri xatırlayıram: "Azərbaycan mənim ürəyimdir. Azərbaycan mənim nəfəsimdir. Azərbaycan mənim həyatımdır". Əminəm ki, həyatının mənasını ölkəsinə xidmət etməkdə görən belə vətənpərvər şəxsiyyəti əbədi olaraq xatırlayacaqlar.

Mənə nadir insan, böyük siyasi xadim, müasir Azərbaycan dövlətinin banisi hörmətli Heydər Əlirza oğlunu şəxsən tanımaq nəsib olub. Ondan siyasi müdrikliyi, təmkinliliyi, əsl strateji düşünmə qabiliyyətini məmnunluqla öyrənmişəm.

Minsk ilə Bakı arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasının əsasını qoyan Sizin atanızın xatirəsini Belarusda əziz tuturlar. Rəmzi haldır ki, Azərbaycanda "Heydər Əliyev İli" elan edilmiş 2023-cü ildə biz ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini də ləyaqətlə qeyd edirik.

Sizə – atanızın işinin sədaqətli davamçısına və Zati-alinizin yaxınlarına cansağlığı, səadət, əmin-amanlıq, dost Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

***

**Cənab Prezident!**
Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi X Qlobal Bakı Forumu çərçivəsində Sizinlə görüşümüzü məmnunluqla xatırlayır və Zati-alinizə dərin minnətdarlığımı bildirirəm.

Bu unudulmaz görüşün qəlbimdə yaratdığı xoş təəssüratla Azərbaycanın ulu öndəri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə onun əziz xatirəsini dərin ehtiramla yad edirəm.

Bu əlamətdar gün münasibətilə Tanrıdan Sizə və Azərbaycan xalqına xoşbəxtlik və uğurlar diləyirəm.

**Ən xoş arzularla,**

***Ehud OLMERT,***
***2006-2009-cu illərdə İsrail Dövlətinin Baş naziri***

**Hörmətli İlham Heydər oğlu!**
Azərbaycan xalqının ümummilli lideri, dünya miqyaslı görkəmli şəxsiyyət və türk dünyasının fəxri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin.

Dahi Heydər Əliyevin strateji düşüncə tərzi və uzaqgörənliyi müasir Azərbaycanın yaradılmasında və uğurlu inkişafında əsas amillər oldu. Onun genişmiqyaslı sosial-iqtisadi islahatları, infrastruktur layihələri və çox fəal xarici siyasəti Azərbaycana ölkənin hüdudlarından uzaqlarda da şöhrət qazandırdı.

Biz Sizin şəxsinizdə Heydər Əliyevin Azərbaycanın tarixi qələbəyə nail olduğu, regionda sabitləşdirici siyasi rol oynadığı və beynəlxalq iqtisadi münasibətlərdə nüfuzlu mövqelərə sahib olduğu siyasətinin uğurlu davamını görürük. Qürur hissi ilə qeyd edirəm ki, Qırğızıstanda Azərbaycanın böyük liderinin adına olan məktəbin bizim tərəfimizdən birgə açılışı əlamətdar hadisədir, qırğız və Azərbaycan xalqlarının qardaşlığının rəmzidir.

Bu fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**
İcazə verin, Azərbaycanın möhtərəm ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə ən səmimi təbriklərimi çatdırım.

Dahi Heydər Əliyev bütün mənalı həyatını sevdiyi ölkəsinə həsr etmiş və milli dövlətçiliyin əsasını qoymuş görkəmli siyasi xadim idi. İndi Azərbaycan beynəlxalq arenada mühüm rol oynayır və öz ümummilli liderinin xatirəsini ehtiramla yad edir.

Bu xoş fürsətdən istifadə edib, Gürcüstan ilə Azərbaycan arasında strateji münasibətlərin qurulmasında dahi Heydər Əliyevin fundamental rolunu vurğulayaraq qeyd etmək istəyirəm ki, onun bu xidmətləri daim yaşayacaqdır. İnanıram ki, biz birgə səylərimizlə strateji tərəfdaşlığımızı xalqlarımızın və bütün regionun rifahı naminə daha da inkişaf etdirməyə davam edəcəyik.

Bu əlamətdar yubiley münasibətilə mən ulu öndər Heydər Əliyevin xatirəsinə dərin ehtiramımı bildirir, qardaş Azərbaycan xalqına ən xoş arzularımı və səmimi salamlarımı çatdırıram.

**Dərin hörmətlə,**

***İrakli QARİBAŞVİLİ,***
***Gürcüstanın Baş naziri***

***

**Hörmətli Prezident İlham Əliyev!**
Sizin mərhum atanız Prezident Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd olunduğu bu günlər görkəmli siyasi xadimin, tarixi şəxsiyyətin və liderin, müasir müstəqil Azərbaycanın banisinin həyat hekayəsini, nailiyyətlərini xatırlamaq üçün çox yaxşı fürsətdir.

Dövlət Təhlükəsizliyi Xidmətində yüksək rütbələrdən başlayaraq keçmiş Sovet İttifaqı rəhbərliyində çox məsul vəzifələrə, müstəqil Azərbaycanı təlatümlərdən xilas edərək inkişaf yoluna çıxarmağa qədər uzanan həyat yolunda o, hər zaman əsl Lider olduğunu sübut etmişdir. Heydər Əliyev güclü məntiqi, zəngin təcrübəsi, qətiyyəti və dərin biliyi ilə müsahiblərini həmişə heyrətləndirirdi. Sizin mərhum atanız dünya liderləri arasında böyük hörmətə malikdir. Mən onu şəxsən tanımaq şərəfinə nail olduğuma görə qürur hissi keçirir və dünya liderlərinin BMT-nin himayəsi altında Nyu-Yorkda Yeni Minilliyi qeyd etmək üçün keçirilən toplantıdakı görüşümüzü dəqiqliklə xatırlayıram. Bu dahi insanla etdiyimiz fikir mübadiləsi mənim üçün çox səmərəli olmaqla bərabər, onun beynəlxalq geosiyasət barədə aydın, düşünülmüş və praktik yönümlü fikirlərindən dərindən təsirlənmişdim.

Siz Heydər Əliyevin liderlik irsini Azərbaycan və onun xalqı uğrunda daha böyük yüksəkliklərə qaldırdığınıza görə qürurlanmalısınız. Mən Sizi dost adlandırmaqdan qürur duyur, Sizə və Azərbaycana daha uğurlu gələcək arzu edirəm.

Allah Sizi qorusun!
Allah Azərbaycanı qorusun!

**Dərin hörmətlə,**

***Ehud BARAK,***
***1999-2001-ci illərdə İsrail Dövlətinin Baş naziri,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

***

**Hörmətli cənab Prezident!**
Atanız, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şanlı yubileyini qeyd edərkən, mən də onun nurlu xatirəsini Sizinlə və xalqınızla birgə yad edir və Sizə qoşuluram.

Mən bu dahi şəxsiyyətin özünü və onun dinlərarası harmoniya üçün təməl rolunu oynayan dəyərli fikirlərini heç zaman unutmayacağam. Bilirəm ki, Siz Heydər Əliyevin beynəlxalq arenada layiqli yerini tutmuş Azərbaycana inkişaf, tərəqqi və sabitlik gətirən siyasi kursunu uğurla davam etdirdiyiniz üçün onun ruhu şaddır.

**Ən xoş arzularla,**

***Ravvin Artur ŞNAYER,***
***ABŞ-ın "Vicdana çağırış" Fondunun prezidenti***

**Zati-aliləri, çox hörmətli İlham Heydər oğlu!**
Sizi və rəhbərlik etdiyiniz respublikanın bütün sakinlərini əlamətdar yubiley – Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Heydər Əlirza oğlu dövlətə xidmət etdiyi uzun illər ərzində özünü səmimi vətənpərvər və uzaqgörən siyasi xadim, xalqının rifahı naminə yorulmadan çalışan məsul və həssas rəhbər kimi göstərib. Həmçinin qeyd etmək sevindiricidir ki, ölkə onun rəhbərliyi ilə sosial və iqtisadi sahələrdə böyük dəyişikliklərə nail olmaqla yanaşı, həm də özünəməxsus xüsusiyyətlərini, ənənəvi mənəvi-əxlaqi dəyərlərə sadiqliyini qoruyub saxlaya bildi.

Sizin atanızın Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının dirçəlməsinə, dinlərarası dialoqun inkişafına, millətlərarası sülhün və vətəndaş barışığının yaradılmasına verdiyi böyük şəxsi töhfəni minnətdarlıqla qeyd etmək istəyirəm.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, bütün Azərbaycan xalqına isə firavanlıq və sülh arzulayıram.

**Dərin hörmətlə,**

***KİRİLL,***
***Moskvanın və Bütün Rusiyanın Patriarxı***

***

**Çox hörmətli İlham Heydər oğlu!**
Şimali Qafqaz müsəlmanları adından və şəxsən öz adımdan Sizi atanızın, müasir dövrün görkəmli siyasi xadimi, Azərbaycan xalqının ümummilli lideri və fəxri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Heydər Əliyev müdrik siyasi xadim və əsl xalq lideri kimi təkcə Azərbaycan Respublikasının deyil, həm də keçmiş SSRİ-nin bütün xalqlarının tarixində silinməz parlaq izlər qoyub. Qeyri-adi şəxsiyyət, uzaqgörən rəhbər, öz xalqının mətin oğlu olan Heydər Əlirza oğlu Əliyev çox mürəkkəb dövrdə bütün dünya azərbaycanlılarını azərbaycançılıq ideyası ətrafında birləşdirə bildi, bununla da Azərbaycan xalqının birliyinin və Azərbaycan dövlətinin sarsılmazlığının möhkəm bünövrəsini qoydu. Eyni zamanda, onun zəngin siyasi irsi Azərbaycanın dünya miqyasında layiqli yerini və dost ölkələrin, o cümlədən Rusiyanın hörmətini təmin etdi. Müasir Azərbaycan Respublikasının tarixini Heydər Əliyevsiz təsəvvür etmək mümkün deyil.

1997-ci ildə Heydər Əliyevlə şəxsən görüşməyim mənim üçün unudulmazdır və qəlbimdə bu görkəmli şəxsiyyətə əbədi olaraq sonsuz ehtiram yaratdı. Onun müdrikliyi, uzaqgörənliyi, siyasi, iqtisadi, mədəni və mənəvi sahələrdə bütün problemləri dərindən təhlil etmək qabiliyyəti məndə həqiqətən heyranlıq hissi doğurdu. O deyirdi: "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Onun bütün sözlərində və işlərində dəyişməz olaraq Azərbaycan xalqının və dövlətinin maraqları naminə sərf etdiyi nüfuz var idi.

Siz, çox hörmətli cənab Prezident, dahi atanızın işini davam etdirərək Azərbaycanın və onun şərəfli xalqının gələcək tərəqqisini təmin edir, həmçinin əsrlər boyu bizim ölkələrin xalqlarını birləşdirən və birləşdirməyə davam edən dostluq, sıx mehriban qonşuluq və qarşılıqlı etimad işinə layiqli töhfə verirsiniz.

Bu gün dahi Heydər Əliyevin xatirəsi Azərbaycanın sabitliyi və tərəqqisinin onun tərəfindən qoyulmuş möhkəm bünövrəsinə əsaslanan Sizin gördüyünüz işlərdə, dövlət və xalq qarşısında müstəsna xidmətlərinizdə yaşayır. Əminəm ki, ümummilli liderin ideyaları gələcəkdə də diqqətlə qorunacaq, nəsildən-nəslə ötürüləcək və gözəl ölkənizin – Azərbaycanın gələcək inkişafına mayak rolunu oynayacaq.

Sizin müdrik rəhbərliyinizlə qardaş Azərbaycan xalqına tərəqqi və rifah diləyirəm. Qoy, Sizin gözəl torpağınızda həmişə aydın səma olsun! Azərbaycana sülh, firavanlıq və əmin-amanlıq arzulayıram.

**Dərin hörmətlə,**

***Şaqabitdin-Hacı KERİMOV,***
***Qafqaz Müsəlmanları İdarəsinin Dağıstan və Şimali Qafqaz üzrə səlahiyyətli nümayəndəsi***

***

**Hörmətli Prezident Əliyev!**
Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Sizi təbrik etməkdən böyük qürur hissi keçirirəm.

Heydər Əliyev Azərbaycan dövlətini və xalqını tarixin çətin və sərt sınaqlarından xilas etdi. O, müstəqil ölkə yaradaraq onun parlaq gələcəyinə etibarlı bünövrə qoydu.

Heydər Əliyevin mədəniyyətlərarası və dinlərarası harmoniyaya əsaslanan strategiyası və siyasəti dünya ölkələri üçün nümunədir. Məhz həmin strategiyanın nəticəsində bugünkü Azərbaycan dini azadlığı olan, digər dinlərə hörmət edən, onları qəbul edən və bir çox dini icmanın sülh və dinc şəraitdə bir arada yaşadığı ölkəyə çevrilib.

Bu dahi şəxsiyyətin xatirəsinə dərin ehtiramımı bildirir və arzu edirəm ki, onun strategiyası öz xalqını və digər dünya ölkələrinin xalqlarını ilhamlandırmaqda davam etsin.

Cənab Prezident, Sizə öz xeyir-dualarımı çatdıraraq möhkəm cansağlığı, uğurlar arzulayır, uzun illər Azərbaycana rəhbərlik etməyinizi diləyirəm.

**Dərin hörmətlə,**

***Elie ABADİE,***
***Birləşmiş Ərəb Əmirliklərinin Yəhudi Şurasının Baş ravvini***

**Zati-aliləri, möhtərəm Prezident İlham Əliyev!**
Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

Müstəqil Azərbaycanın banisi ulu öndər Heydər Əliyevin əziz xatirəsinə ehtiram əlaməti olaraq onun anadan olmasının 100 illiyi münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Zati-aliləri, son çıxışlarınızın birində çox gözəl vurğuladığınız kimi, "Heydər Əliyev həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxs olub və bunu zamana, siyasi vəziyyətə baxmayaraq edib. Sovet Azərbaycanı dönəmində hətta ideoloji əngəllər çərçivəsində ulu öndər Azərbaycan xalqının maraqlarını qoruyurdu, milli kimliyimizi saxlaya bilməyimiz üçün əlindən gələni etməyə çalışırdı".

Cənab Prezident, Sizin müdrik liderliyiniz insanı valeh edir. Zati-aliniz bu gün ulu öndər Heydər Əliyevin missiyasını davam etdirir. Ulu öndər Heydər Əliyevin əziz xatirəsini böyük ehtiramla yad edir və Zati-alinizə xalqınıza xidmət işində müdriklik və qüvvət diləyirəm.

Azərbaycan ilə İsrail arasında səmərəli münasibətlərin olmasına şahidlik etmək çox möhtəşəmdir və mən Avropa Ravvinləri Konfransının Daimi Komitəsinin vitse-prezidenti olaraq 2023-cü ilin noyabr ayında Azərbaycana edəcəyim səfərim zamanı Zati-alinizlə görüşməkdən şərəf hissi duyardım.

Sizinlə səmərəli müzakirələrimizi, ümumbəşəri dəyərlərlə bağlı fikir mübadiləsi aparmağımızı böyük səbirsizliklə gözləyirəm.

Zati-aliləri, Sizə ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Ən xoş arzularla qardaşınız,**

***Ravvin İzhak DAYAN,***
***İsveçrənin Cenevrə şəhərinin baş ravvini, Avropa Ravvinləri Konfransının Daimi Komitəsinin vitse-prezidenti***

***

**Zati-aliləri, möhtərəm cənab Prezident!**
Allahın salamı, rəhməti və bərəkəti üzərinizdə olsun!

Beynəlxalq Müsəlman Alimləri Birliyi Sizə ən yüksək təqdir və ehtiramını ifadə edir və ümidvar olduğunu bildirir ki, Siz dini və dünyəvi işlərinizdə xeyir və səadət içində daha çox müvəffəqiyyət və mükafata qovuşacaqsınız.

Cənab Prezident, 2023-cü il 10 may tarixinin yaratdığı fürsətdən istifadə edərək, qardaş Azərbaycan dövlətinin qurucu Prezidenti, Allahın izni ilə mərhum Heydər Əliyevin Azərbaycanın müstəqilliyi, birliyi, tərəqqisi və rifahı, onu regionda qabaqcıl, güclü və çiçəklənən ölkəyə çevirmək naminə göstərdiyi böyük xeyirxah səylərini təqdirlə anırıq.

Möhtərəm Prezident, bu gün biz görürük ki, Zati-alinizin böyük səyləri demokratik islahatlar, dini və iqtisadi azadlıqlar, tolerantlıq dəyərlərinin möhkəmlənməsi, İslam ümmətində qardaşlıq əlaqələrinin dərinləşməsi, eləcə də İslam əməkdaşlığına dəstək baxımından ulu atanızın siyasətinin davamı və inkişafıdır. Biz görürük ki, Uca Tanrının məsləhəti, Sizin mükəmməl rəhbərliyiniz sayəsində Azərbaycan cəmi 44 gün ərzində əldə etdiyi Zəfərlə otuz ildən artıq işğalda qalan torpaqlarını azad edib öz suverenliyini, ərazi bütövlüyünü bərpa edə bildi. Beləliklə, Sizin rəhbərliyinizlə Azərbaycan beynəlxalq müstəvidə nüfuzlu ölkəyə çevrilərək, dünyanın diqqətini Qafqaz regionunda, Xəzər dənizi hövzəsində yerləşən, intibah yaşayan bu ölkəyə yönəltməklə özünün müasir tarixində yeni mərhələyə qədəm qoydu.

Cənab Prezident, diqqətinizə çatdırmaq istəyirəm ki, on minlərlə alimi, onlarla üləma cəmiyyətlərini birləşdirən, bütün gücü ilə Azərbaycan xalqı, hökuməti və Prezidenti ilə yan-yana dayanan Beynəlxalq Müsəlman Alimləri Birliyi ölkə və xalq üçün faydalı olan, islami maliyyə institutlarının nizamlanmasına, iqtisadiyyatın möhkəmlənməsinə töhfə verə biləcəyimiz hər işdə Zati-alinizlə və əziz ölkənizdə dini işlərdən məsul qurumlarla əməkdaşlığa etməyə hazırdır.

Zati-alinizin şəxsiyyətinə bir daha minnətdarlığımızı bildirir, böyük xalqınıza xidmətinizdə Sizə bundan sonra da uğurlar arzulayır, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq, rifah, tərəqqi və firavanlıq diləyirik.

Daim Allah amanında olun!

**Hörmətlə qardaşınız,**

***Professor Əli Muhyiddin Əl QARADAĞI,***
***Qətər Dövlətindəki Beynəlxalq Müsəlman Alimləri Birliyinin Baş katibi***

## Birinci vitse-prezident Mehriban Əliyeva "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalından görüntülər paylaşıb

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" hesabında Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalından görüntülər paylaşıb.**

**AZƏRTAC paylaşımı təqdim edir.**








## XİN: Ermənistan sərhəddə vəziyyəti qəsdən gərginləşdirir

**Ermənistan Respublikası sərhədyanı bölgələrdə Azərbaycana qarşı hərbi təxribatlarını artırır. Bu barədə Azərbaycan XİN-in yaydığı məlumatda bildirilib.**

Qeyd edilib ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş məlumata əsasən, mayın 10-u axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədib və bu təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu ağır yaralanıb.

Ermənistan tərəfinə təxribatlarına son qoyulması və qəsdən vəziyyəti gərginləşdirməməsi barədə xəbərdarlıq edilməsinə baxmayaraq, mayın 11-i səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələri vəziyyəti daha da gərginləşdirərək Azərbaycan Ordusunun mövqelərini minaatanlardan atəşə tutub, təxribat nəticəsində bir nəfər hərbi qulluqçumuz həlak olub.

Ermənistanın təxribatlarının hər zaman olduğu kimi sülh sazişi üzrə danışıqların intensivləşdiyi, eləcə də liderlər arasında gözlənilən danışıqlar fonunda baş verməsi Ermənistanın sülh prosesinə maraqlı olmadığını göstərir. Ermənistanın danışıqlar prosesinə xələl gətirən bu kimi əməlləri ciddi formada beynəlxalq ictimaiyyət tərəfindən rədd edilməli və qınanılmalıdır.

Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri bütün lazımi tədbirləri görür.

Vəziyyətin qəsdən gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Azərbaycan–Ermənistan: Brüssel raundundan gözlənti varmı?

## Cənubi Qafqaz üç "od" arasında



**Azərbaycan–Ermənistan şərti sərhədində dünən baş vermiş hərbi toqquşmanın fonunda hər iki ölkə arasında sülh gündəliyi ilə əlaqədar diskussiyalar da davam etməkdədir. Tərəflərin ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin vasitəçiliyi ilə gerçəkləşmiş Vaşinqton raundundan sonra bir sıra pozitiv mesajlar səslənsə də, istər Bakının, istərsə də İrəvanın rəsmi dairələrindən gələn açıqlamalar heç də hər şeyin asan olmadığını söyləməyə əsas verməkdədir. Mövcud xüsusda tərəflərin növbəti Brüssel raundunun hansı nəticələr verə biləcəyinə dair fikirlər də yayılmaqdadır. Bu yerdə Rusiyanın öz vasitəçilik missiyasını aktivləşdirməsi amilini də nəzərdən qaçırmamalıyıq.**

Bəli, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə mayın 14-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında danışıqlar aparılacaq. Təxminən, iki həftədən sonra iki dövlətin liderləri Moldovada keçiriləcək Avropa Şurası ölkələrinin sammiti çərçivəsində yenidən görüşəcəklər. Onların Moldovada, həmçinin Fransa Prezidenti Emmanuel Makron və Almaniya Kansleri Olaf Şoltsla (ayrıca və ya birgə) təmasları da planlaşdırılır.

Nəzərə alsaq ki, Vaşinqton və Brüssel sülh səylərini əlaqələndirirlər, hazırkı durumda Kreml, praktiki olaraq, prosesdən kənarda qalıb. Ancaq N.Paşinyanın Moskvaya səfərini də yaddan çıxarmaq olmaz. Erməni baş nazir Rusiya paytaxtına yollanacağını Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri Vaşinqtonda danışıqlar apararkən açıqlamışdı. Bir sıra siyasi ekspertlər bunu İrəvanın sülh prosesindən yayınmaq istiqamətində patronajlıq axtarması kimi qiymətləndirmiş və belə rəyə gələrkən, Kremlin nizamlama prosesinə Vaşinqtondan fərqli yanaşdığını əsas götürmüşdülər. Siyasi analitiklərin digər qismi isə bu fikirdədir ki, Paşinyanın Brüssel danışıqları ərəfəsində Moskvaya səfər etməkdə məqsədi Rusiya Prezidenti Vladimir Putini inandırmaq istəyinə köklənib. Təxminən, belə: Qərbin vasitəçilik təşəbbüsləri Rusiyanın regiondakı maraqlarını təhdid etmir.

Əlbəttə, Moskvanın İrəvanın "göz yaşlarına" inandığını söyləmək olmaz. Diqqət yetirək, ölkənin xarici işlər nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova ötən həftə keçirdiyi ənənəvi brifinqində yenə, necə deyərlər, köhnə havaları yada salıb: 1. Qərbin sülh təşəbbüslərinin səmərəsizliyi. 2. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına məxsus missiyanın Ermənistana göndərilməsi.

İkinci məsələdə Kremlin inad etdiyi aşkardır. Belə görünür, Moskva kifayət qədər konkretdir – Ermənistan təhlükəsiz yaşamaq istəyirsə, KTMT regiona gəlməlidir. Bu məqsəd isə artıq vasitəçilik deyil, öz maraq və mənafeləri naminə qətiyyətli davranışdır. Çünki sözügedən qurumun Azərbaycan-Ermənistan münaqişəsinə heç bir aidiyyatı yoxdur və bu mövqe, hətta, KTMT-yə üzv dövlətlərin liderləri tərəfindən də dəfələrlə səslənib. Belə nəticə hasil olur ki, Rusiya məsələyə yalnız Bakı–İrəvan ziddiyyətləri kontekstində deyil, Cənubi Qafqazda öz varlığını davam etdirmək baxımından yanaşır. Əlbəttə, münaqişə də ölkə üçün yaxşı tutacaq yeridir.

Bu yerdə onu da bildirək ki, Kremlin Ermənistanın siyasi rəhbərliyinin sözlərinə etibar etmədiyi bir şəraitdə, öz məqsədləri üçün bölgədəki vəziyyəti gərginləşdirmək yolları axtaracağı şübhəsizdir. Nəzərə alsaq ki, Rusiyanın Ermənistanın ayrı-ayrı strukturlarına, o cümlədən, orduya təsir gücü qalmaqdadır, dünən baş vermiş erməni təxribatının da izlərini Moskvada axtarmaq mümkündür. Brüssel raundu öncəsi belə təxribatlar görüşdə ehtimal olunan müsbət nəticələri şübhə altına alır. Eyni zamanda, Vaşinqton raundunun də pozitiv mənzərəsinə, A.Blinkenin nikbin bəyanatına xələl gətirir...

Göründüyü kimi, hazırkı məqamda Azərbaycan–Ermənistan danışıqları Cənubi Qafqazda maraqlı olan qüvvələrin mənafe davasının pik həddindədir. Sanki bıçaq sümüyə dirənibmiş kimi təəssürat var. Bu davanı yaradan isə həm də Ermənistandır. Yəni, əgər Qərb problemə Rusiyanı bölgədən çıxarmaq istəyi kimi yanaşırsa və müvafiq olaraq Rusiya da regionda qalmaq naminə cəhdlər göstərirsə, İrəvan hər iki tərəfin istəklərini öz avantüralarına alət edir. Beləliklə ölkə kompromisə gəlmək istəmir, Bakının sülh üçün təklif etdiyi beş prinsipdən uzaq durur, özü üçün sərfəli durum formalaşdırmaq yolu tutur. Əlbəttə, indiki situasiyada kollektiv Qərbin, ümumən, Azərbaycanın haqlı mövqeyi ilə hesablaşdığı tendensiyası da müşahidə olunmaqdadır ki, bu məqam da İrəvan üçün sərfəlidir. Hərçənd, Ermənistan hakimiyyətinin yekunda Qərbin təklifini qəbul edəcəyi də görünür. Təbii ki, Rusiya amili olmasa.

Hələlik isə Paşinyan Qərbə də, Rusiyaya da yaxın görünmək istəyir. O, ölkənin həm daxili auditoriyasına, həm də xaricə hesablanmış çıxışlarında özünün konstruktiv obrazını formalaşdırmağa cəhd göstərir. Bunu obyektiv reallıqlar ətrafında gəzişməklə, ara-sıra ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıyırmış kimi bəyanatlar səsləndirməklə gerçəkləşdirir.

Şübhəsiz, Nikolun belə yanaşması sülh prosesini dalana dirəməyə hesablanıb. Bir qədər də konkret söyləsək, Paşinyan özündən əvvəlki Ermənistan hakimiyyətinin otuz ilə yaxın müddətdə işğalı saxlamaq naminə həyata keçirdiyi manipulyasiyaları, 44 günlük müharibədən sonrakı dövrə transformasiya edib vaxt udmaq və güclənmək niyyəti güdür. Bu dəst-xətt, ona həmçinin, öz hakimiyyətinin müddətini uzatmaq şansı da verir.

Əlbəttə, o da aşkar görünür ki, Paşinyan, heç cür, ölkəsindəki anti-Azərbaycan və anti-türk ab-havasını yenə bilmir. O, xəstə təfəkkürlü, başlıca olaraq ruspərəst medianın təzyiqi ilə şovinizmə və revanşizmə köklənmiş erməni cəmiyyətinin iddialarına qarşı real addım atmaq imkanından uzaqdır.

Qeyd etdiklərimizin fonunda bir vacib məqama da diqqət yetirək. Azərbaycan Prezidenti İlham Əliyev Şuşada keçirilmiş beynəlxalq konfransdakı çıxışında Bakı və İrəvan arasında vasitəçilərsiz danışıqlar təklifini irəli sürmüşdü. Nəzərə alaq ki, bu təklif tərəflərdən bir-birinə münasibətdə səmimi davranmalarını, qətiyyət və iradə göstərərək, münasibətlərin tənzimlənməsini beynəlxalq güclərin inhisarından tamamilə çıxarmağı tələb etməkdədir.

Onu da bildirək ki, dövlətimizin başçısı bu fikrini Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin Vaşinqtonda davam edən görüşü əsnasında dilə gətirmişdi. Bu, o demək idi ki, Azərbaycan lideri də Vaşinqton prosesindən böyük gözləntidə deyildi. Bunu bildirdi də. Hərçənd, cənab İlham Əliyev həmin konfransda ABŞ-ın vasitəçilik missiyasına yüksək dəyər verdiyini də diqqətə çatdırdı, habelə Ağ Evin İrəvanı yola gətirmək rıçaqlarının mövcudluğuna eyham vurdu. Göründüyü kimi, həmin rıçaqlar ehtimal edildiyi qədər də işlək sayıla bilməz. Yəni, onlar Blinkenin pozitiv açıqlama səsləndirməsi reallığını doğurmaqdan o tərəfə getmədi – Ermənistan Birləşmiş Ştatları eşitmək istəmədi.

Sonda belə bir yekun nəticəyə gəlmək olar ki, Azərbaycan və Ermənistan liderlərinin mayın 14-də keçiriləcək Brüssel görüşündən də Cənubi Qafqazda vəziyyətin normallaşması naminə pozitiv nəticələr gözləmək mümkünsüz görünür. Neqativliyin, obrazlı desək, ayaq səsləri isə artıq eşidildi. Azərbaycan dünən Ermənistanın təxribatı nəticəsində şəhid verdi.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Sahibə Qafarova Fransa səfiri ilə görüşdə Parisin qərəzli mövqeyini pisləyib



**Mayın 11-də Milli Məclisin Sədri Sahibə Qafarova Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ann Buayonla görüşüb. O, səfiri Fransanın Azərbaycandakı səfiri kimi fəaliyyətində ölkələrimiz arasında münasibətlərə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirib.**

S.Qafarova ötən il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyini və bu müddət ərzində diplomatik əlaqələrin zəngin tarixinin olduğunu diqqətə çatdırıb. O, həmçinin, tərəflər arasında iqtisadiyyat, ticarət, enerji, nəqliyyat, mədəniyyət, təhsil sahələrində müsbət əməkdaşlıq əlaqələrinin qurulduğunu bildirib. Qeyd olunub ki, çoxsaylı yüksək səviyyəli səfərlər və görüşlər ikitərəfli münasibətlərimizdə mühüm rol oynayıb. S.Qafarova Prezident İlham Əliyevin Fransaya 13, Fransa prezidentlərinin ölkəmizə 3 dəfə səfər etdiyini xatırladıb. O, həmçinin Heydər Əliyev Fondunun Fransadakı fəaliyyətindən də söhbət açıb.

Parlamentin Sədri ötən dövrlərdə ikitərəfli münasibətlərdə əldə olunmuş bu nailiyyətlərə baxmayaraq, bəzi Fransa rəsmilərinin və siyasətçilərinin Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə açıq şəkildə Ermənistana dəstəyini ifadə edən, Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan və erməniپərəst siyasətini dəstəkləyən bəyanatlarının Azərbaycan ictimaiyyətinin haqlı və ciddi narazılığına səbəb olduğunu xatırladıb. Bu kimi təxribatçı bəyanatların ikitərəfli münasibətlərimizə mənfi təsir göstərdiyini qeyd edən S.Qafarova, bu çərçivədə Fransa Senatında və Milli Assambleyada qərəzli qətnamələrin qəbul edilməsini pisləyib. O xatırladıb ki, 2022-ci ilin noyabrında Milli Məclis tərəfindən Fransa Senatında və Milli Assambleyada Azərbaycan əleyhinə qətnamələrin qəbul edilməsini pisləyən bəyanat qəbul edilib və parlamentarilərimiz Fransanın rayon və şəhərlərinin nümayəndələrinin, Milli Assambleya və Senat üzvlərinin təxribat xarakterli fəaliyyətinə və bəyanatlarına öz narazılıqlarını bildiriblər.

S. Qafarova Fransanın Avropa və Xarici İşlər naziri Ketrin Kolonnanın regiona son səfəri, Laçın yolu ilə bağlı Ermənistanda verdiyi bəyanatlar, həmçinin Fransanın ictimai radiosuna verdiyi müsahibədə səsləndirdiyi iddiaları da qəbuledilməz adlandırıb. Onun fikrincə, bu kimi qeyri-obyektiv fikirlər göstərir ki, Fransa bu məsələdə birtərəfli, qərəzli mövqeyini davam etdirir. Hamıya aydın olmalıdır ki, Qarabağ regionu Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazisidir və ölkəmizin ayrılmaz hissəsidir.

Görüşə yaradılan şəraitə görə, minnətdarlığını bildirən səfir Ann Buayon Azərbaycanda diplomatik fəaliyyətə başlayandan sonra keçirdiyi görüşlər barədə məlumat verib. Səfir iki ölkə arasında münasibətlərdə qanunvericilik orqanlarının mühüm rolunu qeyd edib, parlamentarilərin qarşılıqlı əlaqələrinin əhəmiyyətini vurğulayıb. O, Fransa parlamentində qəbul olunan sözügedən qətnamələrin hökumət tərəfindən dəstəklənmədiyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

**Rəsmi Bakı zəfərimizlə bitmiş 44 günlük müharibədən sonra ən yüksək səviyyədə bəyan etdi ki, artıq ATƏT-in Minsk qrupu adlı həmsədrlik institutu mövcud deyil və tarixin arxivinə göndərilib. Azərbaycan Prezidenti İlham Əliyev bu mövqeyi istər rəsmi, istərsə də qeyri-rəsmi görüşlərdə keçmiş həmsədr dövlətlərin və dünyanın nəzərinə dəfələrlə və birmənalı şəkildə çatdırdı. Üstəlik, dövlət başçısı Ermənistan və Azərbaycan arasında münasibətlərin nizamlanması ilə bağlı bu qrupun fəaliyyətinin yarıtmazlığı barədə tutarlı arqumentlərə və dəmir məntiqə söykənən münasibətini də bildirdi. Yəni, bu siyasi müstəvidə əməkdaşlığın faydasızlığı açıq formada deyildi və bizin üçün bu məsələ bağlandı.**

Amma zəfərdən sonrakı iki il altı ay müddətində İrəvan ara-sıra Bakının artıq arxivləşdirdiyi bu həmsədrlik institutunu "diriləndərək" gündəmə gətirmək, onun "xidmətlərindən" yenə faydalanmaq üçün cəhdlər edib. İntəhası, hər dəfə rəsmi Bakının sərt mövqeyi və qəti etirazı ilə üşləşib. Bu qrupun "yeyib-içmək, turizm" diplomatiyasından kənarda heç bir səmərəli fəalliyyətə baş vurmaq istəmədiyinə tam əmin olanda işğal altındakı torpaqlarımızı beynəlxalq hüquqa uyğun şəkildə özümüz azad etdik. Təkcə Qarabağda deyil, bütün Cənubi Qafqazda geosiyasi durumu, qüvvələr nisbətini və coğrafiyanı dəyişən qurtuluş savaşımız təbii olaraq artıq İrəvanla danışıqların forma və məzmununa ciddi korrektələr etdi.

2020-ci il noyabrın 10-dan sonra ATƏT-in Minsk qrupunun Rusiya, Fransa və ABŞ-dan olan həmsədrləri Bakıya hansı statusda təşrif buyurduqlarına özləri aydınlıq gətirməyə çətinlik çəkəndə Prezident İlham Əliyev onların turist kimi qəbul ediləcəyini hamının diqqətinə çatdırdı. Həmin qəbul və Prezident İlham Əliyevin çağırılmamış qonaqlarla, daha doğrusu, həmqonaqlarla layiq olduqları yarıciddi, yarıironik söhbəti yəqin oxucumuz unutmayıb. Və bu, həmsədrlərin zəfərdən sonra Azərbaycana birinci və sonuncu səfəri oldu.

### Adı var, fəaliyyəti yoxdur

Hayların hökumətə yaxın xəbər saytları bir qədər əvvəl Ermənistan XİN rəsmisinin ATƏT-in Minsk qrupunun ABŞ-dan olan keçmiş həmsədri Ceyms Qilmora telefon zəngi, söhbətin mövzusunun İrəvan və Bakı arasında sülh danışıqlarının mümkün nəticələri, "Dağlıq Qarabağ" ermənilərinin aqibəti ətrafında fikir mübadiləsi olduğu barədə məlumat yayıb. Bu isə qətiyyən təsadüfi sayıla bilməz. Rəsmi İrəvanın kimin buyruğu ilə münaqişənin nizamlanmasında həmsədrlik institutunu diriltməyə çalışması məlumdur. Hayların baş nazirinin quyruğu qapı arasında qalanda iki stulda oturmağa cəhd göstərməsini isə birinci dəfə deyil ki, müşahidə edirik. Rəsmi Bakı üçün ATƏT-in Minsk qrupu iki il yarım bundan əvvəl dəfn edilib, fatihəsi də oxunub. Amma görünür üç həmsədrdən ən azı ikisi – Rusiya və Fransa İrəvanı buna təhrik etməkdə maraqlıdır.

# Çağırılmamış həmqonaqlar, deyəsən, Bakı kababı üçün darıxıblar

## Yaxud, 28 il ərzində Qarabağ münaqişəsini tənzimləyə bilməyən ATƏT-in Minsk qrupunun həmsədrlərinin 19 may Moskva görüşünə aidiyyatı barədə



### Hayların 19 may görüşünə "hazırlıqları"

Aydın görünən o idi ki, Kreml Azərbaycan və Ermənistan XİN başçılarının pozitiv notlara və qarşıdakı dövrdə ümidlərə köklənən dördgünlük Vaşinqton sülh danışıqlarını belə rahatlıqla həzm etməyəcək. Paşınyanın parad bəhanəsi ilə gerçəkləşən Moskva səfərindən sonra regionda hadisələrin məhz sabitliyin pozulması məcrasına yönəlməsi bunun əyani sübutu sayıla bilər.

Ermənitan XİN-in bir gün əvvəlki rəsmi məlumatı: "Baş nazir Nikol Paşinyan İrəvanda ATƏT-in Minsk qrupunun həmsədri (?), Rusiya XİN-in xüsusi nümayəndəsi İqor Xovayevlə görüşündə Ermənistan və Azərbaycan arasında münasibətlərin nizamlanması ilə bağlı məsələləri müzakirə edib". Yenə həmsədrlər mövzusu, yenə Rusiya XİN-in xüsusi elçisinin İrəvana səfəri və bunların arxasından boylanan "Dağlıq Qarabağın statusu" nağılı. Belə təxribatçı cəhdlərlə heç nəyə nail ola bilməyəcəyini bilə-bilə sınıq valı səsləndirməyə çalışan İrəvanın əsl məqsədi nədir?



**Politoloq Yeganə Hacıyeva hesab edir ki, Ermənistanın bütün bu cəhdlərinin bir izahı var: "Bu yaxınlarda ATƏT-in fəaliyyətdə olan sədrinin Bakıya səfəri ilə şərti sərhəddə təxribatların üst-üstə düşməsi ondan xəbər verir ki, onların hansısa layihəsi var. Bu, məsələyə ATƏT-in baxışıdır. Ermənistanın yanaşması isə məlumdur. Ümumiyyətlə, 44 günlük müharibədən sonra İrəvanın xarici siyasəti, eləcə də sülh danışıqlarındakı mövqeyi bir nöqtəyə fokuslanıb: Hamı ilə hamıya qarşı. Yəni, bu formatda oynamaq hazırda Ermənistanın xarici siyasətinin prioritetidir. Onların xarici diplomatiyasının digər vacib elementi isə dezinformasiya, reallığı və faktları təhrif etməklə proseslərin gedişatını təqdim etməkdir".**



**Politoloq Fərhad Məmədova görə, ATƏT-in Minsk qrupu yalnız kağız üzərində mövcuddur: "ATƏT-in Minsk qrupu indi də mövcuddur, amma fəaliyyəti yoxdur. ABŞ, Fransa və Rusiyada bizim regionla məşğul olmaq üçün konkret diplomatlar təyin edilib. O adamlara əlavə vəzifə və tapşırıqlar verilib. Düzdür, indi onları həmsədr yox, başqa adla çağırırlar. Lui Bono Ağ Evin Cənubi Qafqaz üzrə baş müşaviridir, Fransada Bris Rokfeyl üçün isə vasitəçi kimi yeni vəzifə təqdim edilib. Həmçinin rusiyalı İqor Xovayev. Bəli, hər dəfə İrəvana gələndə ermənilər onları məhz Minsk qrupunun həmsədrləri kimi təqdim edirlər. Guya, onlar regiona həm də bu simada səfərə gəliblər. Yəni, ATƏT-in Minsk qrupunun nə vaxtsa öz fəaliyyətini bərpa etməsi sadəcə hayların arzusudur. Çünki, onların fikrincə, bu qrupun əsas fəaliyyəti Qarabağın statusu ilə bağlı olub. Biz isə hətta, Moskvanın etirafından öncə bu həmsədr üçlüyünü arxivə yollamışdıq. Bəli, belə bir qrup indi də mövcuddur, lakin fəaliyyəti yoxdur".**

Bəli, mövcud olmayanı reallıq kimi qələmə vermək, feyk xəbərlərlə, ilk növbədə, özlərini aldatmaq hay xislətinə xas cəhətlərdəndir. İndiki məqamda rəsmi İrəvanın Moskvanın çaldığı mahnıya oynamaqda məqsədi hakimiyyətini qoruyub saxlamaq, Kremlin siyasəti isə Ermənistan rəhbərliyinin hələlik xətrinə dəyməmək və regional maraqlarında ondan Qərbə qarşı istifadə etməkdir. Bu konteksdə siyasi şərhçi Yeganə Hacıyeva ilə razılaşmamaq mümkün deyil: **"Paşinyan məhz Moskvadan qayıtdıqdan sonra şərti sərhəddə vəziyyətin gərginləşməsi təsadüf sayıla bilməz".**

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

# Zəfər zirvəsində böyük siyasətin uğur hesabatı

## Dövlətimizin başçısı xalqla təmasda olduğu və əlamətdar günlərdə də siyasi məsələləri diqqətdən yayındırmır

***Biz heç kimdən asılı deyilik, biz heç kimin işinə qarışmırıq... Heç kimə imkan vermirik və verməyəcəyik ki, öz burnunu bizim işimizə soxsun, istər siyasi məsələlər olsun, istər Azərbaycan – Ermənistan məsələləri olsun, istər Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ olsun. Heç kimə imkan verməmişik və verməyəcəyik, bunu təmin etmək üçün iradəmiz də yerindədir, gücümüz də.***

**Azərbaycan Prezidenti
İlham Əliyevin 10 may 2023-cü il tarixli
xalqa müraciətindən**



**Dövlət başçımızın ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə Şuşadan səsləndirdiyi müraciəti xalq və ulu öndərin ruhu qarşısında hesabat kimi qəbul edilməklə yanaşı, həm də müasir Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə növbəti dəfə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edirdi.**

Bundan başqa, dövlət başçısı Şuşa səfəri çərçivəsində çoxsaylı təməlqoyma və açılış mərasimlərində də iştirak etdi ki, bu da işğaldan azad edilmiş ərazilərimizin bərpası istiqamətində həyata keçirilən tədbirlərin miqyası barədə dünya ictimaiyyətində mükəmməl təsəvvür yaradırdı. Eyni zamanda, həmin səfərlər barədə materiallarla tanış olanlar Qarabağ və Şərqi Zəngəzurun bərpasında iştirak edən Heydər Əliyev Fondunun layihələri ilə də tanış olduılar.

Xatırladaq ki, ərazilər işğal altında olanda barbar qonşularımız 65 məscidimizi dağıtmış, qalanlarını isə təhqir etmişdilər. Mayın 10-da keçirilən tədbirlər isə Cənubi Qafqazda kimin kim olduğunu sübut etmək baxımından da xüsusi əhəmiyyət kəsb edirdi. Yəni biz sübut etdik ki, ermənilər tarixdə yırtıcı, dağıdıcı, barbar kimi qalacaqlar. Azərbaycanlılar isə bütün maddi və mənəvi dəyərləri qoruyan, inkişaf etdirən, qurucu xalq kimi tanınırlar.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Yuxarı Gövhər ağa məscidinin əsaslı yenidənqurma və bərpadan sonra açılışında iştirak ediblər. Dövlət başçımıza məlumat verilib ki, Yuxarı Gövhər ağa məscidində 2021-ci ilin sonlarından aparılan bərpa işləri başa çatıb. Məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Məscidin müəllifi məşhur memar Kərbalayi Səfixan Qarabağidir. Bu, müəllifin ən yaxşı əsərləri sırasına daxildir. Məscidin minarələrinin ornamentləri və otaqların divar rəsmləri Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam və xəttat Mir Möhsün Nəvvab Qarabaği tərəfindən işlənib.

Əlavə edilib ki, Şuşa şəhəri işğal altında olduğu müddətdə Yuxarı Gövhər ağa məscidi ermənilər tərəfindən dağıdılmışdı. Şəhər işğaldan azad edildikdən sonra məsciddə başlanılan konservasiya və bərpa işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın “Wehdorn Architekten” şirkətinin nəzarəti ilə ilkin memarlıq üslubuna uyğun aparılıb. Layihə “PAŞA Holding”in maliyyə dəstəyi ilə həyata keçirilib.

Dövlət başçımızın Şuşadan səsləndirdiyi müraciətin elə məqamları var ki, onlar Azərbaycandan çox Ermənistanda şərh olunur, nəinki hər cümlənin, hətta hər sözün təhlili aparılır, “İlham Əliyev bu cümlə ilə hansı sətiraltı fikirləri çatdırır?” – sualına cavab axtarılır.

Prezident dostlarımıza xatırlatdı, bədxahlarımıza isə mesaj göndərdi ki, Azərbaycan demokratik ölkədir və burada insanlar azad yaşayırlar. Yəni “Qarabağdakı ermənilər azərbaycanlılarla bir yerdə yaşaya bilməzlər” – tezisini tutuquşu kimi təkrarlayan işğalçı ölkənin ideoloqları dünyanı aldatmağa çalışmasınlar. Çünki dünyada hamı görür ki, Azərbaycanda bütün xalqların, bütün konfessiyaların nümayəndələri bir ailə kimi yaşayırlar. Hətta bizdəki tolerantlığı dünya üçün nümunə adlandıranlar da az deyil.

Prezident dedi ki, indi durduğumuz Şuşa şəhərini Azərbaycanda yaşayan bütün xalqların qanı, canı bahasına düşmən işğalından azad etmişik? Bu, böyük sərvətdir. Amma elə ölkələr var ki, orada milli, dini zəmində qarşıdurmalar baş verir, toqquşmalar baş verir: “Elə ölkələr var ki, orada heç bir başqa xalqın nümayəndəsi yaşaya bilmir. Elə Ermənistanı misal göstərək. Əhalisinin 99,9 faizi ermənilərdən ibarət Ermənistan bax, bu rəqəmlə faktiki olaraq öz faşist siyasətini göstərir. Ancaq vaxt var idi indiki Ermənistanın əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi, digər millətlərin nümayəndələri təşkil edirdi. İndi Avropanın bəzi ölkələrində, Ermənistana böyük rəğbətlə yanaşan ölkələrdə islamofobiya baş alıb gedir”. Bu, bizim həyat tərzimizdir və eyni zamanda, bu, bizim siyasətimizdir, bu, bizim gücümüzdür. Bu gün belədir, bundan sonra da belə olacaq. Ancaq belə olan halda, biz bundan sonra da rahat yaşaya bilərik, öz gələcəyimizi özümüz qura bilərik”.

Dövlət başçımızın Azərbaycana qarşı yeni təhdidlərlə çıxış edənlərə və revanşizm xülyaları ilə yaşayanlara göndərdiyi növbəti mesaj ölkəmizin beynəlxalq aləmdəki artan nüfuzu, hörməti barədə idi. Xatırladaq ki, biz artıq dörd ilə yaxındır ki, Qoşulmama Hərəkatı kimi dünyanın ikinci beynəlxalq təsisatına rəhbərlik edirik və ümumi rəyə görə, ləyaqətlə rəhbərlik edirik: “Əgər belə olmasaydı, bizim sədrlik müddətimiz 120 ölkənin yekdil səsi ilə daha bir il uzadılmazdı. Bu gün Avropa üçün Azərbaycan çox önəmli ölkəyə çevrilib. Biz Avropa İttifaqına üzv ölkələrin üçdəbiri – doqquz ölkə ilə strateji tərəfdaşıq. Yəni, beynəlxalq mövqelərimiz kifayət qədər güclüdür. Biz beynəlxalq müstəvidə bizə lazım olan bütün sənədləri, qətnamələri qəbul etdirə bilmişik və bu, İkinci Qarabağ müharibəsinin uğurla aparılması üçün də öz rolunu oynamışdır. Çünki biz həqiqəti sübut etmişik. Biz yalnız həqiqəti sübut etməyə çalışırdıq və ona nail olduq ki, bu, bizim torpağımızdır. Bax, durduğum torpaq Azərbaycan torpağıdır. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal işimizlə bu hüquqi və siyasi bazanı yarada bilmişik”.

Başqa bir məqamı da yada salaq. Cənab Prezident bütün tədbirlərdə və müsahibələrində olduğu kimi. Şuşadan səsləndirdiyi müraciətində də ordu quruculuğu məsələsini xüsusilə qabartdı. Qeyd etdi ki, İkinci Qarabağ müharibəsindən sonra biz ordunun maddi-texniki bazasının müasirləşdirilməsi və şəxsi heyətin peşəkarlığının artırılması istiqamətində fəaliyyətimizi davam etdirdik: “Bu ilin dövlət büdcəsinə əlavələr ediləcək, o əlavələrin böyük bir hissəsi yenə də hərbi məqsədlər üçün nəzərdə tutulur. Nə üçün? Çünki biz daim hazır olmalıyıq. Təhdidlər artır, təhlükələr artır və biz hər bir təhlükəni dəf etməyə qadir olmalıyıq. Bu gün də belədir. Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasındadır – həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən”.

Bu gün dünyada gedən çoxsaylı ictimai-siyasi proseslərin yaratdığı informasiya bolluğu Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsindəki Qələbəsi və yaradılmış yeni reallıqlar haqqında məlumatları ikinci plana ötürə bilmir. Hətta ekspertlər yazırlar ki, bu zəfər Azərbaycan durduqca qalacaq. Prezidentin fikrincə, bu, qəhrəmanlıq dastanıdır: “Bu, misli görünməmiş qəhrəmanlıqdır. Ermənistan 30 il ərzində öz himayədarlarının dəstəyi ilə bu torpaqları bizə verməmək üçün gecə-gündüz əlləşirdi. Həm coğrafi relyefə arxalanırdı, 5, 6, bəzən 7 xətt müdafiə istehkam qurğularına arxalanırdı və himayədarlarına arxalanırdı. Hesab edirdilər ki, biz bu vəziyyətlə barışacağıq. Amma mən deyirdim ki, yox, barışmayacağıq. Deyirdim ki, gec-tez gələcəyik, bir təpiklə düşməni qovacağıq, öz bayrağımızı qaldıracağıq və öz doğma torpaqlarımızda yaşayacağıq. İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi. Bizi qabağa aparan məhz bu idi”.

Xatırladaq ki, cənab Prezident təkcə Şuşadan səsləndirdiyi tarixi müraciətində deyil, ümumiyyətlə, bütün çıxış, nitq və müsahibələrində dönə-dönə xatırladır ki, kiminsə bizim daxili işlərimizə qarışmasına imkan verməmişik və verməyəcəyik. Məsələn, ötən ay Salyanda AzTV-yə verdiyi müsahibədə demişdi ki, Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da ki, özləri üçün başqa yaşayış yeri tapmalıdırlar. Burada tam sərbəstlik var, bütün demokratik əsaslar təklif olunur. Bu məsələ insan hüquqları əsasında öz həllini tapmalıdır. Bu gün bizim hərəkətlərimiz onu göstərir və niyyətimiz ondan ibarətdir ki, tezliklə sülh müqaviləsi imzalansın, Azərbaycanla Ermənistan arasında bu qarşıdurmaya son qoyulsun.

***İttifaq MİRZƏBƏYLİ, “Xalq qəzeti”***

**Prezident İlham Əliyevin Şuşadan xalqa müraciətində ümummilli liderimiz Heydər Əliyevin bütün dövrlərdə doğma Azərbaycana sədaqətlə xidmət etməsi, respublikamızın iqtisadi potensialını formalaşdırması, eyni zamanda, dövlət müstəqilliyimizin qorunmasında misilsiz xidmətlər göstərməsi xüsusi vurğulanmaqla yanaşı, dahi şəxsiyyətin 100 illik yubileyinin Şuşada keçirilməsinin mədəniyyət paytaxtımızın tarixi qələbənin rəmzi, zəfərin tacı olmasından irəli gəldiyi bildirilib.**

Dövlət başçısı daha sonra cari il başlayandan ümummilli liderin həyat və fəaliyyəti ilə bağlı bir sıra tədbirlər keçirildiyini, müzakirələr aparıldığını, mayın 2-dən indiyədək isə Qarabağ və Şərqi Zəngəzurda özünün iştirakı ilə 10 kəndin təməlinin qoyulduğunu, açılışlar həyata keçirildiyini vurğulayıb. Ölkə rəhbəri həmin səfər çərçivəsində Qarabağ və Şərqi Zəngəzurun sürətlə dirçəldiyini, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları və məscidlərin inşa edildiyini, yenidən qurulduğunu və ya təmir olunduğunu, həmçinin elektrik xətləri çəkildiyini, bütün bu quruculuq işlərinin təməlində isə Azərbaycan xalqının maraqları dayandığını söyləyib.

# İlham Əliyev: Bu gün atamın ruhu şaddır




Azərbaycan lideri müraciətində bir daha xatırladıb ki, ulu öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi: “Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik. Heydər Əliyev bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etmişdir. Sovet Azərbaycanı dövründə – 1969–82-ci illərdə Azərbaycanı ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşmışdır. Məhz o illərdə yetişmiş kadrlar müstəqil Azərbaycanda və bu gün də fəaliyyət göstərərək bizim ümumi inkişafımızı təmin edirlər”.

Dövlətimizin başçısı müraciətində dahi şəxsiyyətin Azərbaycan rəhbərliyinə yenidən qayıdışı dövrünü xatırlayaraq, həmin vaxt respublikamızın gələcəyinin yalnız xarici sərmayə hesabına mümkün ola biləcəyini diqqətə çatdırıb. Yeri gəlmişkən, Prezident İlham Əliyevin vurğuladığı kimi, o illərdə xəzinənin boş olması, inflyasiyanın min faizlərlə ölçülməsi, sənayenin, o cümlədən, neft-qaz sektorunun iflic vəziyyətə düşməsi xarici investorların ölkəyə gəlmələrinə, onların sərmayə yatırmalarına çətinliklər törədirdi. Buna görə də mövcud problemlərin həllində 1994-cü il sentyabrın 20-də imzalanan “Əsrin müqaviləsi” növbəti bir dönüş nöqtəsi idi.

Həmin tarixi sazişin imzalanması və uğurla gerçəkləşdirilməsi nəticəsində Azərbaycan dövlətinin payına düşən mənfəət neftinin 75 faizi hazırda ölkə iqtisadiyyatını gücləndirir.

Beləliklə, sözügedən müqavilə Azərbaycanın iqtisadi və siyasi mövqeyinin möhkəmlənməsində, beynəlxalq arenada etibarlı tərəfdaş kimi nüfuz qazanmasında mühüm rol oynadı. Ümummilli liderin müəllifi olduğu neft strategiyasının əsas tərkib hissələrindən olan, çoxlarına əfsanə kimi görünən Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin reallığa çevrilməsi istiqamətində addımlar atıldı.

Dahi lider o illərdə nefti Azərbaycanın ən böyük sərvəti kimi dəyərləndirərək, “qara qızıl”ın xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsub olduğunu bildirirdi. Dahi şəxsiyyətin böyük uzaqgörənliklə 1999-cu ildə yaratdığı Azərbaycan Respublikasının Dövlət Neft Fondu ilk gündən etibarən neft gəlirlərinin xərclənməsində şəffaflığı yüksək səviyyədə gerçəkləşdirməyə başladı. Ümumilikdə, Dövlət Neft Fondunun fəaliyyətindən qısa müddət ötəndən sonra bu təşkilat beynəlxalq səviyyədə şəffaflıq kriteriyaları üzrə nümunəvi qurum kimi dəyərləndirildi. Fondun vəsaitləri hesabına həyata keçirilən sosial-iqtisadi layihələr ölkəmizin hərtərəfli inkişafını şərtləndirdi, keçmiş məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına önəmli təsir göstərdi. İlk qaçqın şəhərciyi məhz o vəsaitlə inşa edildi, fondun maliyyəsi ilə ordu quruculuğunda çox ciddi addımlar atıldı.

Prezident İlham Əliyev müraciətində ulu öndərin səyi, uzaqgörənliyi ilə o zaman Azərbaycanın Avrasiyada nəqliyyat mərkəzlərindən birinə çevrilməsi istiqamətində mühüm layihələr gerçəkləşdirildiyini, respublikada Avropa–Qafqaz–Asiya Beynəlxalq Nəqliyyat Dəhlizinə dair çox böyük və mötəbər beynəlxalq konfransın reallaşdırıldığını da bildirib. Ölkə rəhbəri məhz o illərdə bu gün “Orta Dəhliz” deyilən layihənin bəzi maneələrə baxmayaraq, bünövrəsinin qoyulduğunu, bu dəhlizin Azərbaycan ərazisindən keçməsinin də o zaman şərtləndirildiyini vurğulayıb. Xatırladaq ki, Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi) bu gün uğurla fəaliyyət göstərir. Hazırda dəhliz vasitəsilə tranzit yükdaşımaların həcmi 75 faizə çatır.

Yeri gəlmişkən, marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün dəhliz boyunca vahid tarif yaradılaraq “vahid pəncərə” prinsipi tətbiq olunur. Prezident İlham Əliyev müraciətində Heydər Əliyevin neft strategiyasının hazırda Azərbaycanın inkişafını, Qarabağın, Zəngəzurun yenidən qurulmasını şərtləndirdiyini qeyd edərək deyib: “1994-cü ildə “Əsrin kontraktı”, 1996-cı ildə “Şahdəniz” qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amildir. Bu gün Azərbaycan qazı nə qədər böyük önəm daşıyır, bunu hər kəs görür. Ölkəmizin geosiyasi önəmi böyük dərəcədə artıb. Bu gün Azərbaycan qazı 6 ölkəyə nəql edilir. Əgər hər şey plan üzrə gedərsə, bir il ərzində bu ölkələrin sayı 10-a çatacaq, ondan sonra daha da geniş coğrafiyanı əhatə edəcək. Bu, həm bizə gəlir gətirir, həm bizim siyasi çəkimizi, həm də təsir imkanlarımızı artırır. Bütün bu işlərin təməli o illərdə qoyulub...”.

Dövlətimizin başçısı müraciətində son 20 ildə Azərbaycanın iqtisadi inkişafı barədə də fikirlərini bölüşüb. İqtisadiyyatımızın 3 dəfədən çox artdığını, valyuta ehtiyatlarımızın 65 milyard dollara çatdığını, xarici borcun 6 milyard dollardan bir qədər yüksək olduğunu, valyuta ehtiyatlarının xarici borcu təxminən 10 dəfə üstələdiyini, ümumi daxili məhsulun isə cəmi 9-10 faizini təşkil etdiyini diqqətə çatdırıb.

Ölkə rəhbəri müraciətində işğaldan azad olunan ərazilərimizdə bərpa-quruculuq layihələrinin icra vəzəyyətindən də bəhs edib. Dövlətimizin başçısı müharibədən cəmi iki il yarım keçəndən sonra artıq köçkünlərin iki kəndə qaytarıldığını, 10 kəndin isə bünövrəsinin qoyulduğunu xatırladıb.

Bu gün Qarabağ, Zəngəzur dirçəlir, işğaldan azad edilən ərazilərdə bərpa missiyası uğurla icra edilir. Dövlətimizin başçısının müraciətində daha sonra deyilir: “Ulu öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan–Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, eləcə də mülki missiyamızı– bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik.

Mən əminəm ki, bu gün atamın ruhu şaddır, bu gün bizim bütün əcdadlarımızın ruhu şaddır. Biz elə etməliyik ki, öz fəaliyyətimizlə daim onların ruhunu şad edək”.

***Vaqif BAYRAMOV,
“Xalq qəzeti”***

# Azərbaycan Müdafiə naziri Türkiyədə

**Mayın 11-də Türkiyə Respublikasının Konya şəhərində “Anadolu Qartalı – 2023” beynəlxalq taktiki-uçuş təliminin “Yüksək Səviyyəli Müşahidəçi Günü” keçirilib.**



Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarın dəvətilə qardaş ölkədə səfərdə olan Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin müavini – Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov beynəlxalq təlimin “Yüksək Səviyyəli Müşahidəçi Günü”ndə iştirak etmək üçün Konya şəhərinə gəliblər.

General-polkovnik Z.Həsənov təlimlərdə iştirak edən şəxsi heyəti salamlayaraq bildirib ki, bu gün Azərbaycan–Türkiyə əlaqələri strateji tərəfdaşlığa əsaslanır və bunun tərkib hissəsi kimi ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür.

Hərbi əməkdaşlığın inkişafının vacibliyini bildirən cənab H.Akar bu təlimlərin hərbçilərin təcrübə qazanması üçün çox vacib olduğunu, hərbi əməkdaşlığın xalqlarımız və ölkələrimizin təhlükəsizliyinə və bölgədəki sabitliyə yönəldiyini xüsusi vurğulayıb.

***Q.QASIMOV, “Xalq qəzeti”***



**Xalqımızın ümummilli lideri, Yeni Azərbaycanın memarı, zəmanəmizin böyük siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi ölkəmizdə son 65 ildə qazanılmış uğurlara ümumxalq baxışına, ulu öndərin bilavasitə rəhbərliyi ilə əldə edilmiş hərtərəfli tərəqqinin tarixi hesabatına çevrilib.**

# Xalqına sevgisi, Vətəninə xidməti ilə əbədiyyət qazanmış lider

Müdriklərdən biri deyib: "İnsanlar dünyasını dəyişəndən sonra yaşayan xatirələri onların ikinci həyatıdır". Bu hikmətdən çıxış etsək ulu öndər Heydər Əliyevin çağdaş Azərbaycanın tarixində və taleyində oynadığı müstəsna rol, həyatın bütün sahələrində yaratdığı əsaslı dəyişiklik, həyatımızda qoyduğu silinməz izlər bu nəhəng insana da ikinci ömür, həm də əbədiyyət qazandırıb.

Unudulmaz lider Azərbaycana rəhbərliyinin hər iki dövründə Azərbaycanı qarış-qarış gəzib, ayağı dəyən yerlər gülüstana çevrilib, keçirdiyi görüşlər həmin bölgələrdə dastanlaşıb, buna görə də xatirələri daim sevgi-sayğılarla yad edilir. Tarixdə hər insana nəsib olmayan millət atası, ümummilli lider titullarını qazanmış Heydər Əliyev bu ululuğa xalqına çoxillik təmənnasız və misilsiz xidməti ilə yüksəlib.

Ulu öndər respublikamıza rəhbərliyinin birinci dövründə Azərbaycanın gələcək müstəqilliyinin zəruri əsaslarını yaradıb. Müstəqil Azərbaycanın memarı və qurucusu olmuş böyük rəhbər 10 illik prezidentliyi dövründə isə ölkənin hərtərəfli inkişafı və çiçəklənməsi, xalqımızın güzəranının yaxşılaşdırılması, demokratik dövlət, qüdrətli ordu quruculuğu, gənc müstəqil respublikamızın dünya birliyinə qovuşması, beynəlxalq aləmdə geniş tanıdılması yolunda müstəsna xidmətlər göstərib, tarixi uğurlara imza atıb.

Xalqımız haqlı olaraq müstəqilliyimizin banisinin qoyub getdiyi irsi, daxili və xarici siyasətini, ölkəmizin bütövlüyü, tərəqqisi naminə bütün uğurlarını qoruyub davam etdirir. Heydər Əliyevin özünün dediyi kimi: "Tarixdən heç bir şeyi silmək olmaz, onun hər bir mərhələsi xalqın salnaməsi, həyat yoludur". Bu müdrik sözləri elə Heydər Əliyevin özünün də tükənməz fəaliyyətinə şamil etmək olar. Məhz ümummilli liderin apardığı ardıcıl və uzaqgörən siyasətin nəticəsidir ki, bu gün onun yaratdığı sənət əsəri – müasir və müstəqil Azərbaycan dünyanın ən qabaqcıl və inkişaf edən ölkələrindən biridir. Müstəqil dövlətimizi bu şərəfli və mötəbər mərtəbəyə Heydər Əliyevim dərin zəkası, titanik xidmətləri, müəyyən etdiyi dövlət siyasəti çatdırıb.

Ulu öndər Azərbaycanı xilas, dirçəliş və tərəqqi yoluna hədsiz çətinliklərə sinə gərərək, gərgin səyər göstərərək çıxarıb. Müstəqilliyin ilk illərində naşı siyasi qüvvələrin və rəhbərliyi zor gücünə ələ keçirmiş bacarıqsız insanların məsuliyyətsizliyi üzündən 1993-cü ilin iyun ayında ölkəmiz artıq vətəndaş müharibəsi həddinə çatmışdı. Azərbaycan hakimiyyət böhranı ilə üz-üzə qalmışdı. Xalqımızın müstəqilliyini istəməyən xarici güclərin dəstək verdiyi silahlı birləşmələr hakimiyyətin zəifliyindən istifadə edib ölkəni xaosa sürükləmişdilər.

Belə bir çətin şəraitdə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev antiazərbaycan qüvvələrin planlarını alt-üst edərək ölkəni böyük bir fəlakətdən qorudu. Böyük siyasət nəhəngi olan ümummilli lider müstəqil Azərbaycanın idarəçilik sükanı arxasına keçərək sabitliyin, sosial-iqtisadi inkişafın və tərəqqinin qarantına çevrildi.

Azərbaycanın ağır günlərini yaşadığı bir vaxtda yenidən hakimiyyətə gələn və dövlət müstəqilliyimizin dayanıqlığına nail olmaq üçün səylərini, ilk növbədə, ölkə daxilində siyasi sabitliyin bərqərar olmasına yönələn ulu öndər paralel olaraq strateji əhəmiyyət daşıyan bir sıra iqtisadi layihələrin gerçəkləşməsinə də öz töhfəsini vermişdir. Bu layihələrdən ən mötəbəri isə Heydər Əliyevin dəmir iradəsi və siyasi nüfuzu sayəsində 1994-cü il sentyabrın 20-də Bakıda imzalanan Əsrin müqaviləsi oldu. Bu müqavilə həm iqtisadi, həm də siyasi əhəmiyyət kəsb edir.

Ulu soydaşımız Heydər Əliyev Azərbaycanı – ümumi və bölünməz vətənimizi çox sevirdi. O, azərbaycanlı olması ilə həmişə fəxr edirdi və deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Bu yerdə keçmiş SSRİ-nin Dövlət Plan Komitəsinin sabiq sədri Nikolay Baybakovun sözünü xatırlamaq yerinə düşər: "Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram". Heydər Əliyevin müdrik siyasət, tükənməz enerji, dərin inamla Vətən naminə gördüyü işlər tariximizə qızıl hərflərlə həkk olub və xalqımızın yaddaşında əbədi yaşayacaq. Eyni zamanda, Heydər Əliyev türk dünyasının qüdrətli lideri, dünya tarixində yeri olan böyük şəxsiyyətdir. BMT-nin keçmiş Baş katibi Butros Qali demişdir: "Heydər Əliyev böyük şəxsiyyətdir. O mənim dostum, qardaşımdır. Onun yeri həmişə ürəyimin başındadır".

Bütün Azərbaycan xalqı kimi ulu öndərimizi biz qarabağlılar, ilk növbədə, ağdamlılar da unutmur, qəlbimizdə yaşadırıq. Yaxşı yadımdadır ki, bütün regionlarımızın inkişafını da daim diqqət mərkəzində saxlayan respublika rəhbəri sovet dövründə 4 dəfə – 1973, 1974, 1981, 1982-ci illərdə Ağdam rayonuna səfər etmiş, hər gəlişində rayonun sosial-iqtisadi inkişafına yeni yön və stimul vermişdir.

Mən rayon partiya komitəsində məsul vəzifədə və Ağdamda çıxan rayon qəzetinin redaktoru olduğum illərdə ulu öndərimizin keçirdiyi iclas və plenumlarda, fəallar yığıncaqlarında, zona müşavirələrində iştirak etmişəm. Bu yaxın müşahidələrim zamanı onun Vətənini, xalqını nə dərəcədə sevdiyinin, insanlara necə diqqət və qayğı ilə yanaşdığının, unikal yaddaşa və biliyə malik olduğunun şahidi olmuşam. 1977-ci ildə Azərbaycan KP MK-da təcrübədə və 1986-cı ildə Moskvada SSRİ jurnalistlərinin qurultayında olarkən ulu öndərimizlə təmasda olduğum anlar da indi unudulmaz tarixə çevrilmişdir.

Azərbaycan rəhbəri birinci dəfə 1973-cü ildə Ağdamda səfərdə olarkən demişdi: "Mən arzu edirəm ki, Ağdam gündən-günə çiçəklənsin. Həm şəhər, həm də kəndlər dastanlarda, şeirlərdə olduğu kimi, Azərbaycanın gözəl bağ-bağatlı guşəsi olsun". O, rayonun kolxozlarında pambıqçılarla və mexanizatorlarla görüşmüş, onların əmək və güzəranı ilə maraqlanmışdı. Heydər Əliyev zarafatından qalmayaraq 9 uşağı olan qadınları 10 uşağı olan qadından niyə geri qaldığını soruşmuş və "ona çata bilərsənmi?"– demişdi. Ulu öndər bununla xalqımızın artıb - çoxalmasının vacibliyini anlatmışdı. Heydər Əliyevin rayon zəhmətkeşləri ilə görüşləri hər yerdə mehriban, səmimi və işgüzar şəraitdə keçmiş, 1981-ci ilin iyul ayının 10-da ölkə başçısının yenidən Ağdam rayonuna səfəri də əsl bayrama çevrilmişdi. Dahi rəhbərimiz 6 dəfə ümumittifaq sosializm yarışının qalibi olmuş, adı XTNS-nin şərəf kitabına yazılmış, Sosialist Əməyi Qəhrəmanı Xuraman Abbasovanın başçılıq etdiyi kolxozun pambıqçıları, taxılçıları və mexanizatorları tərəfindən də yüksək əhval-ruhiyyə ilə qarşılanmışdı. Heydər Əliyev Xındırıstan kəndində də böyük təmtəraqla qarşılanmışdı. Kolxozun mədəniyyət sarayında respublika partiya-təsərrüfat fəalları yığıncağı keçirilmişdi.

Müstəqillik dövründə isə yenicə hakimiyyətə qayıtmış ulu öndər 1993-cü il Ağdam işğal olunduğu günlərdə rayona gəlməsi ilə yerdə qalan ərazinin qorunub saxlanmasını təmin etmişdir. Prezident Heydər Əliyev 1996-cı il avqust ayının 2-də Ağdam şəhəri və onun ətraf kəndlərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin üçüncü ildönümü ilə əlaqədar Ağdam rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdü. Mən bu görüşdə də iştirak etmişdim. Ümummilli lider bu dəfə Ağdam və onun insanları haqqında demişdir: "Respublikamızın həyatında Ağdam rayonu həm iqtisadi, elmi potensialına, həm də insanların fədakarlığına görə həmişə çox mühüm rol oynamışdır... Ağdam qorunmalı idi, Ağdam saxlanılmalı idi, Ağdam müdafiə olunmalı idi. Ağdamın işğalı yolverilməz idi... Ağdam vuruşmuşdur, böyük itkilər vermişdir".

1998-ci ilin oktyabr ayında seçicilərilə görüşmək məqsədi ilə Ağdam rayonunun Quzanlı qəsəbəsində olmuşdur. Umumiyyətlə, böyük rəhbər hər dəfə rayonumuzda olarkən şəhər və kəndlərimizi gəzmiş, sakinlərlə görüşmüş, onlarla səmimi söhbət etmişdi.

Azərbaycanın inkişaf tarixinin, təxminən, son yarım əsrlik dönəminə diqqətlə nəzər salsaq, gələcəyə istiqamətlənmiş, dayanıqlı inkişafı təmin edən və cəmiyyətin hər bir üzvünün rifahına xidmət göstərən müdrik və uzaqgörən siyasətin nəticələrini görə bilərik. Bütün bunlar ulu öndər Heydər Əliyevin Vətən üçün sonsuz xidmətləri hesabına başa gəlib. Təməli dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulan iqtisadi, siyasi, sosial və mədəni inkişaf xətti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli liderin qalibiyyət strategiyası Azərbaycanı daim yüksəlişə aparır.

***Bəbir HÜSEYNOV,***
***Əməkdar jurnalist***

# Naxçıvanda yubiley yürüşləri



**Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar yürüş təşkil edilib.**

Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları və Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının iştirak etdiyi yürüş şəhərin Heydər Əliyev prospektində həyata keçirilib. İştirakçılar prospektlə Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Sarayına qədər yürüş ediblər.

*

**Xüsusi təyinatlılar isə ümummilli liderin yubiley münasibətilə Naxçıvan Muxtar Respublikasının ən hündür nöqtəsi olan "Qapıcıq" zirvəsinə yürüş ediblər.**

Ordubad rayonu ərazisində yerləşən və hündürlüyü 3 min 905 metr



olan Qapıcıq zirvəsinə qalxan hərbi qulluqçularımız ulu öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini yad ediblər, Azərbaycan Respublikasının




üçrəngli bayrağını dalğalandırıblar və Dövlət Himnimizi səsləndiriblər.

Xüsusi təyinatlılar ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyini şərəfinə lövhəni qaya üzərinə bərkidiblər.

*

**Mayın 10-da axşam saatlarında Naxçıvan şəhər stadionunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə yubiley atəşfəşanlığı təşkil olunub.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, o cümlədən, on minlərlə muxtar respublika sakini şənlikdə iştirak ediblər.

Atəşfəşanlıqda tanınmış incəsənət ustalarının çıxışları ilə bərabər, ulu öndərin səmada möhtəşəm portreti yaradılıb, ölkəmizdə tarix yaratmış imzası nümayiş etdirilib.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"***





# "Azərbaycanda BMT-nin inkişaf təşəbbüslərinin həyata keçirilməsində Heydər Əliyevin rolu"

**Mayın 11-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar İqtisadiyyat Nazirliyində "Azərbaycanda BMT-nin inkişaf təşəbbüslərinin həyata keçirilməsində Heydər Əliyevin rolu" mövzusunda konfrans keçirilib.**

Məclisdə çıxış edən Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov ümummilli liderin xalqın tələbi ilə yenidən hakimiyyətə gəlməsi nəticəsində bütün sahələrdə olduğu kimi, xarici siyasətdə də əhəmiyyətli dəyişikliklər baş verdiyini vurğulayıb. Qeyd edib ki, həmin dövrdə yenicə müstəqilliyini əldə etmiş dövlətin milli maraqlara uyğun xarici siyasət kursunun işlənib hazırlanması dahi strateq Heydər Əliyevin sayəsində mümkün olub. O vaxtdan Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin nəticələrinin dünya ictimaiyyətinə çatdırılması və ölkəmizin haqlı tələblərinin yerinə yetirilməsi xarici siyasət kursumuzda əsas yerlərdən birini tutmağa başlayıb. Ulu öndərin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası, həmçinin BMT ilə əməkdaşlığın inkişafı, birgə layihələrin həyata keçirilməsi ölkəmizin dünyada nüfuzunu artırmaqla yanaşı, iqtisadi potensialımızı daha da gücləndirib, inkişafa töhfə verib. Azərbaycanın sürətli inkişaf dinamikası isə əhalinin rifahının daha da yüksəlməsinə xidmət edir.

İqtisadiyyat naziri Mikayıl Cabbarov müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin ölkəmizdə siyasi institutların formalaşmasında, sosial-iqtisadi inkişafda misilsiz xidmətlərindən danışıb. Vurğulanıb ki, məhz Heydər Əliyevin liderlik məharəti, strateji qərarları sayəsində ölkəmizdə güclü və müstəqil dövlət, davamlı inkişaf edən iqtisadiyyat və rifahlı cəmiyyət formalaşıb. Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə ulu öndər tərəfindən daim diqqət yetirilib. Ölkəmizdə Minilliyin İnkişaf Məqsədlərinə nail olunması məqsədilə kompleks tədbirləri əhatə edən dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan bir çox hədəflər üzrə mühüm nailiyyətlər əldə edib. Ölkəmiz yoxsulluğun yarıya qədər azaldılması öhdəliyini götürən 128 ölkə arasında bu öhdəliyi yerinə yetirən 18 ölkədən biri olub, 2010-cu ildə "orta insan inkişafı" statusuna malik ölkələr qrupundan çıxaraq "yüksək insan inkişafı" kateqoriyasına daxil olub. Bildirilib ki, BMT-nin Minilliyin Bəyannaməsinin davamı olaraq respublikamız "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulub. DİM-in icrası ölkədə uğurla davam etdirilir, bu istiqamətdə dünyada 10 ölkədən biri, regionda ilk ölkə olan Azərbaycan tərəfindən BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna 3 hesabat təqdim edilib, növbəti hesabatın isə gələn il təqdim olunması nəzərdə tutulub.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Bik Lum Heydər Əliyevin Azərbaycan–BMT münasibətlərinin inkişafında, ölkəmizin sosial-iqtisadi sferada əsas hədəflərinə nail olunmasında mühüm xidmətlərini vurğulayıb, BMT–Azərbaycan tərəfdaşlığının 30 ildən artıq müddətdə uğurla davam etdiyini bildirib. Qeyd olunub ki, Minilliyin İnkişaf Məqsədlərinin icrasına böyük töhfə verən Heydər Əliyevin başladığı təşəbbüslər nəticəsində Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enmiş, ölkənin İnsan İnkişafı İndeksində göstəriciləri isə 30 faiz artmışdı. Bik Lum, həmçinin bildirib ki, hazırkı əməkdaşlıq çərçivəsini icra etmək və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün BMT Azərbaycanın bütün səylərini dəstəkləyəcək.

Konfransda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, deputatlar Ziyad Səmədzadə, Məzahir Əfəndiyev, Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, BMT Əhali Fondunun Ölkə üzrə Nümayəndəliyinin rəhbəri Fərid Babayev ulu öndərin zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanda iqtisadi tərəqqinin, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması, qeyri-neft sektorunun, sənayenin, sosial infrastrukturun, qanunvericiliyin inkişafı və təkmilləşdirilməsi, insan hüquqlarının, gender bərabərliyinin təşviqi istiqamətində həyata keçirdiyi uğurlu islahatlardan söz açıblar.

Tədbirdə ulu öndərin Azərbaycanın beynəlxalq münasibətlərinin formalaşması, Azərbaycan–BMT əlaqələrinin inkişafı ilə bağlı gördüyü işlər, təşkilatın Baş Assambleyasında çıxışları və yüksək səviyyəli görüşlərini əks etdirən film nümayiş olunub.

***"Xalq qəzeti"***

# Hayların növbəti sülhdənqaçma oyunu

**Ermənistan yenə öz ampluasındadır. Rəsmi İrəvan mayın 14-da Brüsseldə iki ölkənin rəhbər şəxslərinin gözlənilən görüşü ərəfəsində Azərbaycanla şərti sərhəddə hərbi təxribat törədib. Ona görə öz ampluasındadır yazırıq ki, qarşı tərəf hər dəfə mühüm danışıqlar ərəfəsində bu cür hərəkətlərə yol verir. Məqsəd aydındır: güc tətbiq etməklə danışıqlar prosesini pozmaq və bununla da Azərbaycana təzyiq göstərmək. Hayların bu taktikadan istifadəsinin az qala 25 yaşı var. 1999-cu il noyabrın 18-19-da İstanbulda ATƏT-in Sammiti keçirilib. Bu sammit ərəfəsində Azərbaycanla Ermənistan sülhə çox yaxın olublar. Ancaq həmin ilin oktyabrın 27-də hayların parlamentində terror aktı törədildi və razılaşma əldə etmək mümkün olmadı. Bu faktı Hayastanın ilk prezidenti Levon Ter-Petrosyan 2011-ci ilin aprelin 15-də BBC-nin rus xidmətinə müsahibəsi zamanı da etiraf etmişdi.**



Ter-Petrosyandan sonra Ermənistana rəhbərlək edən şəxslər danışıqlar prosesinin nəticəsiz olmasını təmin etmək üçün bütün oyunlara baş vurdular. Bu mənada, gözlənilən yüksək səviyyəli görüş ərəfəsində Ermənistanın sülhdən qaçmaq üçün yeni təxribat törətməsi bizim üçün təəccüblü olmamalıdır. Çünki Ermənistanda rejimlər dəyişsə də, hayların xisləti dəyişmir.

### Nə baş verib?

Müdafiə Nazirliyinin yaydığı məlumata görə, Ermənistan tərəfinə təxribatlarına son qoyulması və qəsdən vəziyyəti gərginləşdirməməsi barədə xəbərdarlıq edilməsinə baxmayaraq, növbəti dəfə atəşkəsi pozub. Belə ki, mayın 10-u axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədiblər. Qarşı tərəfin atəşi nəticəsində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Müslüm Mahmudlu başından ağır yaralanıb. Yaralı hərbi qulluqçumuz dərhal hərbi tibb müəssisəsinə çatdırılıb. Təxribat törədilən istiqamətdə Azərbaycan Ordusunun bölmələri tərəfindən zəruri cavab tədbirləri görülüb.

MN qəsdən törədilən bu təxribata görə bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü bəyan edib.

Dünən gün ərzində nazirlik bir neçə dəfə açıqlama yayıb. Qeyd edilib ki, mayın 11-i səhər saatlarından etibarən qarşı tərəf vəziyyəti daha da gərginləşdirərək Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini minaatanlardan atəşə tutur. Azərbaycan Ordusunun bölmələri tərəfindən zəruri cavab tədbirlərinin görüldüyü bildirilib.

Yayılan növbəti açıqlamada qarşı tərəfin təxribatlarını genişləndirmək məqsədilə iriçaplı silahlar və minaatanlardan istifadə etməklə mövqelərimizi atəşə tutmağa davam etdiyi vurğulanır.

### Qarşı tərəfin dezinformasiyası

Səhər saatlarında Ermənistan tərəfi onlara məxsus tibb maşınının atəşə tutulması barədə məlumat yayıb. Bu məlumat MN tərəfindən dərhal təkzib edilib. Qeyd edilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən, guya, tibb maşınına atəş açılması barədə Ermənistan mətbuatında yayılan məlumatlar yalandır və dezinformasiya xarakteri daşıyır.

### Hərbçimiz şəhid oldu

Ermənistanın qəsdən törətdiyi təxribat nəticəsində ordumuzun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Orxan Novruzəlizadə şəhid olub. Əməliyyat şəraitinin bölmələrimizin nəzarəti altında olduğu qeyd olunub.

### "İrəvanın əməlləri ciddi şəkildə qınanılmalıdır"

Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda Ermənistanın sərhədyanı bölgələrdə Azərbaycana qarşı hərbi təxribatları artırdığı bildirilib. Qeyd edilib ki, Ermənistanın təxribatlarının hər zaman olduğu kimi, sülh sazişi üzrə danışıqların intensivləşdiyi, eləcə də, liderlər arasında gözlənilən danışıqlar fonunda baş verməsi rəsmi İrəvanın sülh prosesində maraqlı olmadığını göstərir. Ermənistanın danışıqlar prosesinə xələl gətirən bu kimi əməlləri ciddi şəkildə beynəlxalq ictimaiyyət tərəfindən rədd edilməli və qınanılmalıdır.

### Ombudsman: Ermənistanın hərbi təxribatını kəskin şəkildə pisləyirik

İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın yaydığı müraciətdə Azərbaycanın sülh çağırışlarına məhəl qoymayan Ermənistanın insan hüquqlarının kobud şəkildə pozulmasına yönəlmiş hərbi təxribatlara hələ də davam etməsi təəssüflə qeyd olunur: "Ermənistanın növbəti hərbi təxribatı nəticəsində həlak olmuş hərbçimizə Allahdan rəhmət diləyir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, regionda sülh quruculuğu prosesində maraqlı olmayan, öz işğalçı siyasətini davam etdirən, insan hüquqlarını kobud şəkildə pozan Ermənistanın hərbi təxribatını kəskin şəkildə pisləyirik. Azərbaycanın davamlı olaraq təklif etdiyi sülh çağırışlarının əksinə olaraq Ermənistan məqsədli şəkildə regionda vəziyyəti gərginləşdirir, beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobud şəkildə pozmaqla yeni münaqişə ocaqlarının yaranması üçün təxribatlar törədir. Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili olaraq, bir daha beynəlxalq təşkilatlara müraciət edərək, Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarına dərhal son qoyulmasını, regionda sülhün bərpası üçün qəti tədbirlərin görülməsini tələb edirik".

### Ekspert rəyi



**Rizvan HÜSEYNOV,**
**hərbi-siyasi şərhçi**

– Ermənistanın siyasi subyekt kimi nə çəkisi, nə də rolu var. Biz Ermənistanla danışıqlar aparırıq, ancaq bu ölkə öz sözünə heç vaxt sadiq qalmır. Biz baş verən hadisələrdə üçüncü tərəflərin roluna nəzər yetirməliyik. Etiraf etməliyik ki, istər Vaşinqton danışıqları, istərsə də Brüssel formatında keçirilən görüşlər Rusiyanın maraqları ilə toqquşur. Rusiya Ermənistanın güc strukturlarında, orduda olan "beşinci kolon"undan, yəni, öz adamlarından hər dəfə çox məharətlə istifadə edir. Nəticədə mayın 10-u axşamdan başlayan və mayın 11-də davam edən təxribata bənzər hadisələr olur. Məqsəd odur ki, ya Qərbin təşəbbüsü olan danışıqlar prosesi reallaşmasın, ya da neqativ fonda keçirilsin. Bu dəfə də həmin ssenari icra olunur. Brüsseldə gözlənilən danışıqlar fonunda sərhəddə ənənəvi təxribat törədildi. Nikol Paşinyan mayın 14-dəki danışıqlara qatılacağını bildirsə də, hər halda, tərəflərin görüşü üçün neqativ fon yarandı.

### Danışıqlar Ermənistana eskalasiya üçün lazımdır

Şübhəsiz ki, Ermənistanın bu təxribatçı hərəkəti mayın 1-dən 4-dək ABŞ-da aparılan danışıqlarda qeydə alınan irəliləyişi ləğv etmək məqsədini daşıyır. Qarşı tərəf bazar günü Brüsseldə üçtərəfli formatda, iyunun 1-də Kişineuda beştərəfli formatda keçirilməsi nəzərdə tutulan danışıqları pozmaq niyyətindədir. Təcrübə göstərir ki, danışıqlar prosesi Ermənistana yalnız eskalasiya və müharibə üçün lazımdır. Eskalasiya isə danışıqlar zamanı əldə olunan hansısa irəliləyişi ləğv etmək üçün istifadə olunur.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

# Haydi Kün Azərbaycana qarşı mina təhdidləri barədə məlumatlandırılıb



**Mayın 11-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov minaların təmizlənməsi sahəsində humanitar fəaliyyət göstərən ABŞ-ın "Sülhün kökləri" humanitar təşkilatının təsisçisi və rəhbəri Haydi Kün ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən bildiriblər ki, görüş zamanı nazir Ceyhun Bayramov Ermənistanın ölkəmizə qarşı 30 ilə yaxın davam etmiş təcavüzü nəticəsində Azərbaycana qarşı yaranmış mina təhdidləri barədə müqabil tərəfə ətraflı məlumat verib.

Azərbaycan vətəndaşlarının Ermənistan tərəfindən kütləvi şəkildə basdırılmış minaların qurbanına çevrilməsi və minaların təmizlənməsi sahəsində Ermənistanın Azərbaycanla əməkdaşlıq etməməsi diqqətə çatdırılıb.

Mina təhdidlərinin 44 günlük Vətən müharibəsindən sonra bərpa və yenidənqurma işlərinə və məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtması prosesinə maneə olduğu vurğulanıb.

"Sülhün kökləri" beynəlxalq humanitar təşkilatının rəhbəri xanım Haydi Kün də, öz növbəsində, Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasının bütün region üçün əhəmiyyətini vurğulayaraq, eyni zamanda, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfəri və bu istiqamətdə birgə əməkdaşlığa dəstək göstərmək niyyətini bəyan edib.

Tərəflər daha sonra qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***"Xalq qəzeti"***

# XİN: Azərbaycan Kişineu görüşündə iştirakı mümkün sayır

**Ötən il Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında bir neçə görüş keçirilib. Dekabrda məhz Ermənistan tərəfi Brüsseldə eyni formatlı görüşdə iştirakdan imtina edib, bununla da prosesə maneçilik törədilib.**



Bunu Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi və iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin mayın 14-də Brüsseldə, iyunun 1-də isə Avropa Siyasi İcmasının Kişineuda keçiriləcək növbəti görüşündə Fransa Prezidenti Emmanuel Makron və Almaniya Kansleri Olaf Şoltsun iştirakı ilə görüşlərinin planlaşdırılması barədə Avropa İttifaqının məlumatına dair yerli medianın sorğusunu cavablandırarkən bildirib.

Xarici İşlər Nazirliyinin nümayəndəsi vurğulayıb ki, Azərbaycan tərəfi ötən il baş tutmamış və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə may ayında yenidən bərpa olunması planlaşdırılan Brüssel görüşünə razılıq verib.

Eyni zamanda, Kişineuda Avropa Siyasi İcmasının növbəti iclası çərçivəsində Fransa Prezidenti və Almaniya Kanslerinin iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında görüş keçirilməsi təklif olunub. Azərbaycan tərəfi öz növbəsində Brüssel formatını əvəz etməmək və bu formatı dəyişdirməmək şərtilə Kişineuda qeyri-formal görüşdə Azərbaycan tərəfinin iştirakının mümkün olduğunu bildirib. Bununla yanaşı, sözügedən görüşün təfərrüatları barədə müfəssəl məlumat verilmədiyi nəzərə alınaraq, Kişineu görüşündə iştiraka dair yekun razılıq hələlik mövcud deyil.

***"Xalq qəzeti"***

Siyasi replika

# Peskovluq heç nə yoxdur

## *Bəs Rusiyalıq nə isə var?..*

**Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Azərbaycanı və Ermənistanı təmkinli olmağa, gərginliyin artmasına səbəb yaradacaq hər hansı addım atmamağa çağırıb. Peskov, həmçinin, Moskvanın üçtərəfli Bəyanatlar çərçivəsində üzərinə düşən bütün işləri gördüyünü bildirib. Əlbəttə, o, hazırda Rusiyanın konkret hansı addımlar atdığını deməyib. Nə desin, axı?! Danışıqların Rusiya fazasında tam sakitlikdir. Əvəzində, Azərbaycan və Ermənistanın dövlət sərhəddində eskalasiya mühiti hökm sürməkdədir. Bu mühitdə bir alovlanma dünən yaşandı. Azərbaycanın Müdafiə Nazirliyinin yaydığı xəbərdə Ermənistandan, hətta, artilleriya atəşləri açıldığı bildirilib. Təbii, ordumuz duruma səssiz qalmayıb, bu, öz yerində. Ancaq...**



Peskov, daha dəqiq desək, Rusiya tərəfləri sakitliyə çağırmaqda haqlıdırmı? Haqlıdır, o anlamda ki, prezident sözçüsünün bildirdiklərində pis heç nə yoxdur. Amma, onun söylədikləri, yalnız, iki dava edən uşağa "dalaşmayın" deməyə bənzəyir. Eyni sözü 44 günlük müharibənin gedişində ABŞ-ın o zamankı Prezidenti Donald Tramp da dilə gətirmişdi. Hazırda sabiq olan dövlət başçısı jurnalistin Cənubi Qafqazda müharibə ilə bağlı sualına, kifayət qədər, maraqlı, maraqlı olduğu qədər də biganə cavab vermişdi. Təxminən, belə: bəli, müharibədən xəbərimiz var. Azərbaycanla Ermənistan vuruşur. İkisi də bizim üçün vacib ölkələrdir, dostlarımızdır, yaxşı olar ki, silahı yerə qoysunlar, dalaşmasınlar.

Nəzərə alaq ki, 44 günlük müharibə müddətində ABŞ administrasiyası Cənubi Qafqaz geosiyasi labirintindən uzaq düşmüşdü. Doğrudur, ölkə bir neçə dəfə, guya, tərəfləri barışığa gətirmiş kimi təşəbbüslər irəli sürmüşdü. Ancaq bunlar nəinki heç bir fayda verməmiş, üstəlik, elə təəssürat yaranmışdı ki, Birləşmiş Ştatlar, ümumiyyətlə, proseslərdə yoxdur. Bəli, sadəcə yoxdur.

Hazırda Rusiya da, belə demək mümkünsə, qınına çəkilib. Ölkənin, Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın həftəlik brifinqlərdə səsləndirdiyi iddialı fikirlərinin sabun köpüyü effektindən başqa, regionda hansısa gerçək aktivliyi yoxdur. Zaxarovaya gəldikdə isə, o, sanki, daha çox ABŞ-ın timsalında Qərbin nizamlama missiyasına təkbaşına cəbhə açmaqdadır. Xanım sözçünün müəyyən şablonları da var, onları təkrarlamaqdan başqa heç nə etmir. Hər dəfə də atmacalı, ikibaşlı fikir səsləndirir – Qərb bölgədə gərginlik yaradır və s. İndi necə başa düşək, hazırda şərti sərhəddəki gərginlik Qərbin işidir? ABŞ, yaxud Avropa Ermənistanı öyrədib ki, Azərbaycana qarşı təxribata başla? Bəlkə də öyrədirlər, ancaq nə olsun? Rusiyanın anti-Qərb məntiqindəki kəsər yalnız danışmaqdırmı?..

Bəs, gözlənti nədir? Əlbəttə, Cənubi Qafqazda, ümumən, sülh gözləntisi var. Ancaq bu gözləntidə Ermənistanın dizini qoyub aman diləməsindən real hər hansı perspektivə meydan yoxdur... Digər tərəfdən, son aylar bölgədə baş verən proseslərə, eləcə də həmin proseslərə münasibətdə Rusiyanın tutduğu mövqeyə nəzər salanda belə qənaətə gəlinir ki, sülhü ən az yaxın buraxan elə Moskvanın özüdür. Bunu söyləmək üçün ölkənin Qarabağın statusu məsələsini sonraya saxlamaq, yekun sülh müqaviləsi üçün gözləmək, ay nə bilim, tərəflərin cəmiyyətlərini buna hazırlamaq yönümlü bəyanatları yada düşür.

Sual olunur: bəs Rusiya nəyi gözləyir? Ortada beynəlxalq hüquq var. Rəsmi Moskvanın da tanıdığı Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı prinsipini də bu sıraya əlavə edək. Ən əsası isə Azərbaycanın, heç bir halda, Qarabağ məsələsinin, Qarabağ erməniləri ilə bağlı məsələnin danışıqlar müstəvisinə çıxarmağa razı olmayacağına dair qəti qərarı var.

Elə isə nəyi... Bəlkə Rusiya hesab edir ki, tərəflər Ukraynadakı müharibənin bitməsini və Moskvanın özünə gəlməsini gözləməlidirlər? Axı, müharibə bitənə oxşamır, üstəlik, böyük savaşdan Rusiyanın, loru dildə desək, salamat çıxıb çıxmayacağı da bilinmir. Başqa bir yandan, Ermənistan rəsmiləri Rusiyadan zəhlələrinin getdiyini ifadə etmək üçün daha hansı cümlələr qurmalıdırlar? Bəlkə, Kreml gözləyir ki, bu cümlələr deyilib bitsin, İrəvanın hakim dairələri ürəklərini tam boşaltsınlar?! Yəni, ermənilər də Vaqnerin komandanı Priqojin kimi ağızlarını açıb gözlərini yummalıdırlar?

Bəli, hazırda Qərb Azərbaycan–Ermənistan nizamlamasında təşəbbüsü öz əlinə alıb. Peskov isə bildirir ki, İrəvanla Bakı arasında yeni gərginlik fonunda Rusiya Prezidenti Vladimir Putinlə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında təmaslar hələlik planlaşdırılmır. Bəs nədir Moskvanın planlaşdırdığı? Yəqin, tərəflərə "sakit durun" demək və Qərbi gərginlik yaratmaqda ittiham etmək üçün təzə sözlər tapmağı planlaşdırır ki, bu işin də öhdəsindən bir yandan Peskov, digər yandan Zaxarova bacardıqları qədər gəlirlər. Hərçənd, onların hər ikisi, obrazlı desək, köhnə patefonun toz basmış vallarını dəyişdirməkdən başqa heç nəyə yaramırlar. Musiqi köhnədir, həm də patefon bərbad vəziyyətdə olduğundan, səsi çıxmır. Əvəzində, Brüssel Bethovenin 40-cı simfonuyasını sifariş edib...

Mayın 14-də Azərbaycan və Ermənistan lidelərinin yeni görüşü olacaq. Əlbəttə, həmin vaxtadək Peskov və Zaxarova oturub Qərbi gərginlik yaratmaqda ittiham edən yeni fikirlər mütləq tapacaqlar. Vaxt var. Ancaq onların, ümumən, Rusiyanın hakim siyasi isteblişmentinin Cənubi Qafqazda sülh üçün hansısa real addımlar atdığını hiss edəcəyikmi? Halbuki, bu, çoxdan baş verməli idi. Ən azından, üçtərəfli Bəyanata görə. Peskov Rusiyanın həmin sənədlərə görə işlər gördüyünü deyirsə, Kreml buyurub Qarabağdakı erməni silahlılarını oradan çıxarsın. Hə xatırladıq, bu işlər Peskovluq deyil...

***R.AMİN***

# İqtisadi yüksəlişdə yeni rekord

## Ötən il ÜDM 134 milyard manata çatıb

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ötən il ümumi daxili məhsul (ÜDM) 4,6 faiz artaraq 133,8 milyard manat, qeyri-neft-qaz sektorunda isə 9,1 faiz artaraq 69,8 milyard manat təşkil edib. ÜDM-in tərkibində qeyri-neft-qaz sektoru üzrə bir sıra sahələrdə əhəmiyyətli artım qeydə alınıb. Hesabat dövründə dövlət büdcəsinə vergi daxilolmaları 82 faiz artıb və 15,5 milyard manat təşkil edib.**

Ekspertlərin fikrincə, vurğulanan sonuncu göstəricilər müstəqilliyimiz dövründə olan mütləq rekord məbləğdir. Hökumət tərəfindən müəyyənləşdirilən bir sıra fiskal imtiyazlar və güzəştlər fonunda belə nəticələrin əldə edilməsi müsbət bir haldır. Ən sevindirici hal isə ondan ibarətdir ki, ödənilən vergilərin, xüsusilə qeyri-neft sektorunda 80 faizdən çoxu özəl sektorun payına düşür.

Keçən il ərzində qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcminin 14 faiz artması, əsas kapitala yönəldilmiş investisiyaların 70 faizinin bu sahəyə yönəldilməsi ölkədə sahibkarlığın inkişafının real göstəricisidir.



Həyata keçirilən məqsədyönlü və uğurlu islahatlar nəticəsində ölkəmizdə özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib, sahibkarlığın ümumi daxili məhsulda payı 81 faizə, məşğulluqda isə 77 faizə çatıb.

Qeyri-neft-qaz sektorunun dinamik inkişafı ixrac prosesinə də müsbət təsir göstərib. Belə ki, cari ilin yanvar-aprel ayları ərzində Azərbaycanın ümumi ixracı 12,6 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac 1,2 milyard ABŞ dolları təşkil edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına görə, qeyri-neft sektoru üzrə ixrac 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 21,2 faiz artıb. 2023-cü ilin dörd ayında yeyinti məhsulları üzrə ixrac 236,2 milyon ABŞ dollarına bərabər olub. Cari ilin yanvar-aprel ayları ərzində spirtli və spirtsiz içkilərin ixracı 6 dəfə, şəkər ixracı 27,6 faiz artıb.

Yuxarıda vurğulanan rəqəmlər iqtisadi sahədə qazanılan uğurların miqyasını və əhatəsini əyani şəkildə göstərir. Lakin bu gün mürəkkəb və volatil mühitə baxmayaraq ortamüddətli perspektivdə Azərbaycanda iqtisadi artımın 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası üzrə təmin edilməsi qarşıda mühüm vəzifə kimi durur. Davamlı artım drayverlərinin fəallaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi, işğaldan azad edilmiş ərazilərimizin ölkə iqtisadiyyatına sürətlə reinteqrasiyası rəqabətqabiliyyətli iqtisadi artımı şərtləndirir.

Bu prosesdə rəqəmsal ekosistemin, sahibkarlıq mühitinin, insan kapitalının inkişafı kimi məsələlər də diqqət mərkəzində dayanır. O cümlədən, dövlət dəstək mexanizmlərinin təkmilləşdirilməsi, yeni alətlərin tətbiqi sahibkarlığın inkişafına yeni töhfələr verir. Sənaye zonalarının rezidentlərinin sayının artması, biznesin güzəştli maliyyə resurslarına çıxışının genişləndirilməsi, yeni fiskal güzəştlər, ixrac və investisiyaların təşviqi üçün imtiyazlar və digər məsələlər də bu baxımdan mühüm önəm daşıyır.

Özəl sektora göstərilən dəstək mexanizmləri ilə yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi dəyər zəncirinə reinteqrasiyası və Naxçıvanın iqtisadi potensialının yüksək səviyyədə reallaşdırılması da respublikamızda iqtisadi artıma müsbət təsir göstərəcək. Qarabağda özəl sektorun fəaliyyətinin genişlənməsi isə həm məşğulluğun həcminə, həm də işğaldan azad edilmiş ərazilərimizin bərpasının sürətlə yekunlaşmasına böyük töhfə verəcək.

Hazırda hökumət sahibkarları və investorları Qarabağa investisiya yatırmağa maraqlandırır. Dövlət tərəfindən bu məqsədlə zəruri dəstək təmin olunur. Araz Vadisi İqtisadi Zonası və Ağdam sənaye parklarında sahibkarlar üçün əlverişli şəraitin yaradılması, bu müəssisələrdə fəaliyyət göstərən iş adamlarına müxtəlif güzəştlər edilməsi də bunun bariz ifadəsidir.

Bütün bunlar sahibkarlığın yaxın gələcəkdə yeni bir mərhələyə daxil olacağını deməyə əsas verir. Bu, Azərbaycan Respublikasının 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyasında da bildirilir. Həmin sənəddə qarşıdakı 10 il ərzində özəl sektorun iqtisadiyyatda payının 88 faizə çatdırılacağı, sahibkarlıq fəaliyyəti üzərində izafi tənzimləmənin tam optimallaşdırılacağı gözlənilir.

### Ekspert rəyi

**Mirağa ƏHMƏDOV, iqtisadçı-ekspert**



Dövlətimizin başçısı tərəfindən müəyyənləşdirilən milli prioritetlər üzrə yeni inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən islahatlar, ardıcıl tədbirlər sayəsində Azərbaycanda iqtisadi artım meyilləri daha da yüksəlib. Qarşıdakı illərdə Azərbaycan hökumətinin əsas məqsədi qeyri-neft sektorunu dinamik inkişaf etdirməklə, bu sahəyə investisiya qoyuluşunu artırmaqla bağlıdır. Məlumdur ki, bizim əsas neft yataqlarımız artıq hasilatın azalması mərhələsindədir. Doğrudur, qaz yataqlarında hasilatın növbəti illərdə getdikcə artacağı da gözlənilir.

Buna baxmayaraq, ölkəmizin dayanıqlı inkişafını məhz qeyri-neft sektorunun yüksəlişi şərtləndirəcək. Sahibkarlıq, o cümlədən mikro, kiçik və orta biznes respublika rəhbərliyinin davamlı qayğısı və yeni stimullarla daha yüksək nailiyyətlər əldə edəcək.

Fikrimcə, növbəti illərdə əsas məqsəd qeyri-neft sektorunda istehsal olunan məhsulun ixracı ilə bağlı olmalıdır. Çünki ixrac edilə bilən məhsul əgər regional və qlobal bazarlarda rəqabətlidirsə, deməli, bu məhsul asanlıqla öz yerini Azərbaycan bazarında da tapacaq.

Onu da qeyd edim ki, 2016-2022-ci illər ərzində 470-dən çox sahibkarlıq subyektinə 570-dən artıq investisiya təşviqi sənədi verilib, sahibkarların həyata keçirdikləri layihələr nəticəsində 5,5 milyard manatdan çox investisiya yatırılıb, 38 minədək yeni iş yeri yaradılıb. Layihələrin 14 faizi Bakı şəhəri və ətraf qəsəbələrin, 86 faizi isə regionların payına düşüb.

Sahibkarlığın İnkişafı Fondu tərəfindən özəl sektorun inkişafına yönəldilən son bir ildəki maliyyə həcmləri də diqqət çəkir. Belə ki, hesabat dövrü ərzində verilmiş güzəştli kreditlərin məbləğinin 69,7 faizi regionların payına düşür. Həmçinin regionlarda bizneslərin dayanıqlılığının artırılması və sahibkarlıq mühitinin təşviqi prioritet istiqamətlər sırasında dayanır.

Əminliklə deyə bilərəm ki, bu istiqamətdə həyata keçirilən tədbirlər artıq öz müsbət nəticəsini verib. Ötən il Azərbaycanın xarici ticarət dövriyyəsi 55 faizdən çox artıb və 52,6 milyard ABŞ dolları, ixrac isə 71,8 faiz artaraq 38 milyard dollardan çox olub. İqtisadiyyatın şaxələndirilməsi və ixrac potensialının yüksəldilməsi istiqamətində gerçəkləşdirilən layihələr sayəsində isə 2022-ci ildə qeyri-neft məhsullarının ixracı 12,3 faiz artaraq 3 milyard dollardan çox təşkil edib.



# Qara dənizdən Avropaya yeni enerji marşrutu

**Son illər dünyada ənənəvi enerji mənbələrindən "yaşıl enerji"yə keçidə maraq xeyli artıb. Məlum olduğu kimi, hazırda dünyada enerji istehlakının 17,9 faizi bərpaolunan enerji mənbələrinin payına düşür. Artıq bu sahə neft, qaz və ya kömür kimi təbii sərvətlərlə zəngin ölkələrin belə, enerji sahəsində dövlət siyasətinin tərkib hissəsinə çevrilib.**

Bunun nəticəsidir ki, bərpaolunan enerji mənbələrinin energetika sektorunda payı getdikcə artır. Hətta bir sıra ölkələr 2035–2050-ci ilə qədər mədən yanacaqlarından tamamilə imtina etməyi və "yaşıl enerji"dən istifadəyə keçməyi planlaşdırırlar. Azərbaycanda da bu sahəyə xüsusi diqqət göstərilir. 2030-cu ilədək elektrik enerjisi qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması, işğaldan azad olunmuş ərazilərin "yaşıl enerji" məkanına çevrilməsi ölkəmizin enerji siyasətində prioritetdir.

Hazırda Azərbaycanın ümumi elektrik enerjisi istehsalında iri su elektrik stansiyaları da daxil olmaqla bərpaolunan enerji mənbələrinin payı 17 faiz təşkil edir. Bu da 1278 meqavat elektrik enerjisi deməkdir. Yeri gəlmişkən, 2023-cü ilin yanvar-mart aylarında ölkəmizin su elektrik stansiyalarında 277,9 milyon kilovat-saat, külək elektrik stansiyalarında 15,5 milyon kilovat-saat, günəş elektrik stansiyalarında 13,4 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 62 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

Azərbaycanın enerji ehtiyatları ilə zənginliyi bütün dünyada qəbul olunur. İndi bir sıra Avropa ölkələri özünün enerji təhlükəsizliyinin təminatı üçün Azərbaycanı əsas tədarük bazası kimi görürlər. Elə bunun nəticəsidir ki, uzun illərdir ölkəmizin karbohidrogen ehtiyatları məhz bu istiqamətə axır. Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda da Azərbaycanın "yaşıl enerji" ilə bağlı planlarının bəzi məqamlarına bir daha nəzərə salınıb, bir sıra mühüm mesajlar verilib.

Şuşa konfransında ABŞ-ın Hərbi Dəniz Donanması Ali Məktəbinin professoru Brenda Şaferin Azərbaycanın enerji siyasəti ilə bağlı sualını cavablandıran Prezident İlham Əliyev bildirib ki, ehtiyatlara malik olub, onları nəql etmək imkanımızın olmamasındansa, yaxşı olar ki, potensialımız olsun və biz ondan tam şəkildə istifadə etməyək. Dövlətimizin başçısı sözünə davam edərək deyib: "Qara dəniz kabeli ilə bağlı ilkin hədəf 1 qiqavat idi, Azərbaycan layihəyə qoşulanda biz onu 4 qiqavatadək artırdıq. Çünki biz Azərbaycanda 25 qiqavat günəş və külək enerjisi istehsal olunması ilə bağlı artıq beynəlxalq şirkətlərlə müqavilələr və anlaşma memorandumları imzalamışıq. Beləliklə, 25 qiqavat burada, Xəzər dənizində, quruda istehsal olunacaq və bizim tutuma, ötürməyə ehtiyacımız var. Əgər hər kəs bizim bu gün nələri təşviq etdiklərimizə qulaq asdısa, düşünürəm ki, Avropanın enerji təhlükəsizliyi daha yaxşı qorunacaq".

Məlum olduğu kimi, Qara dənizin dibi ilə kabel xəttinin çəkilməsi ilə bağlı layihənin reallaşdırılması regionda və Avropada yeni əməkdaşlıq mühitinin formalaşmasına səbəb olub. Bu, 2022-ci il dekabrın 17-də Buxarest şəhərində "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasından sonra mümkün olub. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Şuşa konfransında qeyd etdiyi kimi, artıq dörd ölkənin–Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyanın iştirakı ilə daha geniş format yaradılıb: "Həmin layihənin Məşvərət Şurasının ilk iclası fevralda Bakıda, ikinci toplantısı isə bu yaxınlarda – ötən ay Tbilisidə keçirilib. Biz bu layihəyə daha böyük perspektivdən baxırıq və onu sadəcə "Qara dəniz kabeli" kimi deyil, Xəzərdəki külək enerjisi stansiyalarından Avropaya enerjini ötürən vasitə kimi qəbul edirik. Həmin layihə bütövdür və Cənub Qaz Dəhlizindən fərqlənir, çünki Dəhliz bir-biri ilə bağlı üç müstəqil boru kəmərindən ibarət olan hissəli layihədir"–deyə dövlətimizin başçısı bildirib.

Əməkdaşlıqdan söhbət düşmüşkən, Gürcüstanın "Geocase" təşkilatının sədri Viktor Kipiani konfransda regional əlaqələrin genişləndirilməsində növbəti mərhələ baxımından hər hansı transsərhəd layihənin uğur modeli üçün müstəsna əhəmiyyət kəsb edən Azərbaycan ilə Gürcüstan arasında ortaya çıxan məhsuldar əməkdaşlığın hansı formada davam edəcəyi ilə bağlı sual ünvanlayıb. Prezident İlham Əliyev hazırda mənbədən ümumiləşdirilmiş layihələrə keçməklə bağlı mövcud situasiyaya toxunaraq deyib: "Bu halda mənbə, həmçinin Gürcüstanda olacaq və oradan yekun istiqamətlərə gedəcək. Bu cür rəsmi əməkdaşlığa başladıqdan sonra biz Avropanın layihəyə qoşulmaq istəyən bir sıra digər ölkələrindən bəzi mesajlar almağa başladıq. Beləliklə, düşünürəm ki, layihə qlobal xarakter ala bilər...Avropa İttifaqı bunu qəti şəkildə dəstəkləyir və həmin dəstək nikbinliyimizi artırır. Çünki Avropa Komissiyasının sədri xanım Ursula Fon der Lyayen ötən ilin dekabrında Buxarestdə imzalanma mərasiminin şahidi oldu. Bir sözlə, onun iştirakı Avropa İttifaqının layihədə ciddi şəkildə iştirak edəcəyindən xəbər verir. Bu, ola bilsin, gələn onilliklərin layihəsidir, çünki istər hidro, istər külək enerjisi sahəsində həm Gürcüstanda, həm də Azərbaycanda, o cümlədən, Qarabağda böyük potensial var".

Qara dənizin dibi ilə kabelin çəkilməsi başa çatana qədər isə ölkəmiz "yaşıl enerji" istehsalını təmin etməlidir. Şuşa konfransında dövlətimizin başçısı Azərbaycanın "yaşıl enerji" ilə bağlı potensialının hərəkətə gətirilməsi istiqamətində görülən işlərdən bəhs edərək bildirib ki, ötən müddətdə 25 qiqavat enerjini istehsal etmək məqsədilə bərpa edilən enerji sahəsində məşhur olan bir neçə əsas beynəlxalq şirkətlə müqavilə və anlaşma memorandumları imzalanılıb. "Hazırda onun təxminən 500 meqavatı üçün tikinti işləri gedir. 230 meqavatlıq güclərin açılışını biz bir neçə ay ərzində planlaşdırırıq. 700 meqavatdan artıq günəş və külək enerjisini biz ola bilsin, maksimum 2025-ci ilə qədər təmin edəcəyik. Qalan güclərin yaradılması plandadır. Bir sözlə, gələcəyimizin böyük üfüqləri var və biz hər zaman bir yerdə olmalıyıq", – deyə Prezident İlham Əliyev fikrini tamamlayıb.

Göründüyü kimi, Azərbaycan Avropanın enerji təhlükəsizliyini təkcə neft-qaz potensialı ilə də deyil, alternativ enerji mənbələri hesabına da təmin etməsi ilə bağlı mühüm işlər görür. Bu istiqamətdə birgə əməkdaşlığın isə Azərbaycan iqtisadiyyatına çox böyük fayda gətirəcəyi şəksizdir.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***

# Ölkə iqtisadiyyatına investisiya qoyuluşu 21,1 faiz çoxalıb

**Cari ilin yanvar–aprel aylarında Azərbaycanda əsas kapitala 4 milyard 580 milyon manat və yaxud əvvəlki ilin eyni dövrü ilə müqayisədə 21,1 faiz çox vəsait yönəldilib.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, son bir ildə neft-qaz sektoruna investisiyalar 25,8 faiz, qeyri-neft-qaz sektoruna investisiyalar isə 18,5 faiz artıb. İlin ilk dörd ayında istifadə olunmuş vəsaitin 2 milyard 620,2 milyon manatı və yaxud 57,2 faizi məhsul istehsalı sahələrinə, 1milyard 702,5 milyon manatı və yaxud 37,2 faizi xidmət sahələrinə, 257,3 milyon manatı və yaxud 5,6 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub. Hesabat dövründə əsas kapitala yönəldilmiş vəsaitlərin 3 milyard 344 milyon manatını (73 faiz) daxili vəsaitlər təşkil edib, 3 milyard 252 milyon manatı (71 faiz) isə bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilib.

Komitənin məlumatında daha sonra bildirilir ki, əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 47,1 faiz, büdcə vəsaitləri 36,7 faiz, əhalinin şəxsi vəsaitləri 6,8 faiz, bank kreditləri 3,7 faiz, sair vəsaitlər isə 5,7 faiz təşkil edib.

***"Xalq qəzeti"***



# Dövlət büdcəsinə vergi daxilolmaları 52,4 faiz artıb

**2023-cü ilin yanvar-aprel aylarında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 52,4 faiz artaraq 7 milyard 672,2 milyon manat təşkil edib.**

Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" səhifəsində bildirib. Nazir qeyd edib ki, bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları ötən ilin eyni dövrü ilə müqayisədə 16,7 faiz artaraq 4 milyard 3,4 milyon manat olub.

"Vergi daxilolmalarının artımında "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması istiqamətində atılan addımların əhəmiyyətli rolu var", – deyə Mikayıl Cabbarov əlavə edib.

***"Xalq qəzeti"***

# Gömrük gəlirləri 25 faiz yüksəlib

**Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu ilin yanvar-aprel aylarında gömrük xətti ilə büdcə daxilolmaları əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 24,7 faiz artaraq 2 milyard 46,681 milyon manata çatıb.**




Məlumata görə, gömrük rüsumları üzrə daxilolmalar 496 milyon 589,2 min manat (ötən ilin eyni dövrünə nisbətən 21 faiz çox), əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar 1 milyard 470,864 milyon manat (25,2 faiz çox), aksizlər üzrə daxilolmalar 62,297 milyon manat (56,2 faiz çox), yol vergisi üzrə daxilolmalar isə 17,030 milyon manat (1,5 faiz çox) təşkil edib.

***"Xalq qəzeti"***

# Ulu öndərin 100 illik yubiley xalısına hər bölgə öz ilməsini vurur

**Bu günlər Azərbaycanın bütün bölgələrində Heydər Əliyevin 100 illik yubileyi böyük coşqu və təntənə ilə qeyd olunur. Bayram əhval-ruhiyyəsinə bürünmüş rayon mərkəzlərində musiqi ilə süslənmiş yubiley tədbirləri yerli sakinlərin və qonaqların zövqünü oxşamaqla yanaşı, həm də ulu öndərə böyük sevginin və ehtiramın ifadəsidir. Sanki Heydər Əliyevin xatirəsinə toxunan zəngin çeşnili xalıya hər bölgə özünəməxsus ilməsini vurmağa çalışır. Möhtəşəm atəşfəşanlıqla yekunlaşan yubiley tədbirlərinin isə iştirakçıların yaddaşından heç zaman silinməyəcəyi şübhəsizdir.**

## Şamaxı



Heydər Əliyevin 100 illik yubileyi respublikanın hər yerində olduğu kimi Şamaxı rayonunda da təntənə ilə qeyd olunub. Tədbirdən əvvəl Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, Milli Məclisin deputatı Tamam Cəfərova və rayon ictimaiyyətinin nümayəndələri Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Rayon Mədəniyyət Mərkəzində təşkil olunmuş rəsmi hissədən əvvəl tədbir iştirakçıları ulu öndərin Şamaxı rayonuna tarixi səfərlərini özündə əks etdirən foto-sərgiyə baxış keçiriblər.

Rayon İH başçısı Tahir Məmmədov ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti, Azərbaycan xalqına və dövlətçiliyinə olan tarixi xidmətləri barədə məruzə ilə çıxış edib.

Ardınca Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən sənədli film nümayiş olunub.

Heydər Əliyev Fondunun dəstəyi ilə Şamaxı şəhərinin mərkəzində ulu öndərin adını daşıyan parkda rayon sakinlərinə və qonaqlara respublikanın tanınmış incəsənət xadimlərinin iştirakı ilə yubileyə həsr olunmuş konsert proqramı təqdim olunub.

## Göyçay



Göyçay Rayon Heydər Əliyev Mərkəzində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təntənəli tədbir keçirilib. Tədbirdə rayon icra hakimiyyətinin başçısı Natiq Ağayev, Milli Məclisin deputatları Sabir Hacıyev, Məzahir Əfəndiyev, İqtisad Universitetinin professoru İrşad Kərimli, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələrinin üzvləri, Vətən müharibəsi iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak edib. İştirakçılar əvvəlcə Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış ümummilli liderin abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək xatirəsini dərin ehtiramla yad ediblər. Ardınca mərkəzdə ulu öndərin həyat və fəaliyyətini, Göyçay rayonuna səfərlərini əks etdirən foto-sərgi ilə tanış olublar.

Yubiley tədbirini giriş sözü ilə açan Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev bildirib ki, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir.

“Azərbaycan xalqı yeni əsrə, yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub”, – deyən N.Ağayev çıxışında xüsusi olaraq vurğulayıb ki, respublikaya rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi, yüksək vətənpərvərliyi sayəsində qısa müddətdə Azərbaycanda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrdə böyük sıçrayışa nail olub və bu yolun layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyev Azərbaycanı daha böyük uğurlara və zəfərlərə çatdırmaqla ata vəsiyyətini layiqincə yerinə yetirib.

Sonra ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş “Əsrin adamı” sənədli film nümayiş etdirilib.

## Ağsu



Ağsu Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Heydər Əliyevin 100 illik yubileyi təntənə ilə qeyd edilib. Tədbirdə Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, Milli Məclisin deputatı Tahir Kərimli, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon ağsaqqalları, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak edib. İştirakçılar öncə Heydər Parkında ulu öndərin abidəsi önünə gül dəstələri düzərək xatirəsinə ehtiramlarını bildiriblər. Ağsu şəhər Mədəniyyət evində təşkil olunan yığıncaqda rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov çıxış edərək Heydər Əliyevin parlaq və şərəfli həyat yolu, dövlətçilik fəaliyyəti, azərbaycançılıq ideologiyası, Azərbaycanın inkişafı naminə göstərdiyi əvəzsiz xidmətlərini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

“Dünya dövlətləri sırasında şah əsəri olan müstəqil Azərbaycana əbədi var olmaq hüququ verən ulu öndərin müdrik siyasət onun siyasi varisi İlham Əliyev tərəfindən layiqincə davam etdirilir”, – deyə vurğulayan R.Bağırov məhz Ali Baş Komandan tərəfindən torpaqlarımızın 30 illik işğaldan azad edildiyini, indi həmin ərazilərdə bərpa-quruculuq işlərinin görüldüyünü söyləyib.

Rəsmi yığıncağın sonunda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən sənədli film nümayiş etdirilib. Daha sonra Heydər Əliyevin adını daşıyan parkda respublikanın tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin iştirakı ilə konsert proqramı təqdim olunub.

## Zaqatala




“XX əsr bəşəriyyətə çox görkəmli dövlət xadimləri, müdrik rəhbərlər, bacarıqlı dövlət başçıları bəxş edib. Belə dahi şəxsiyyətlərdən biri də Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevdir. Məhz bu dahi şəxsiyyətin tükənməz enerjisi, gərgin əməyi sayəsində Azərbaycan müstəqilliyə, inkişafa, tərəqqiyə qədəm qoyub”.

Bu fikirlər ulu öndərin 100 illik yubileyi münasibətilə Zaqataladakı Heydər Əliyev Mərkəzində keçirilən yığıncaqda rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə səsləndirib. Tədbirdən öncə rayon rəhbərliyi və ictimaiyyətin nümayəndələri ulu öndərin Mədəniyyət və istirahət parkında ucaldılan abidə kompleksini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Yubiley tədbirində çıxış edən Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə həyatının məqsədi, başlıca amalı Azərbaycanın müstəqilliyi, doğma xalqının xoşbəxtliyi olan, bütün mənalı ömrünü bu yolda sərf edən Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi barədə danışıb. Qeyd olunub ki, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin siyasi kursunun bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin öz tarixində görünməmiş tərəqqi yoluna çıxmasını təmin edib. “Otuz il işğal altında qalan torpaqlarımız hərbi-siyasi yolla düşmən tapdağından azad olundu. Əldə edilən uğurlar ölkəmizi regionun liderinə, güc mərkəzinə çevirdi”, – M.Əhmədzadə çıxışında vurğuladı.

Sonda tədbir iştirakçıları Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən “Əsrin adamı – 100” sənədli filmini izləyiblər.

## Ağcabədi



Ağcabədi rayon mərkəzindəki Heydər Əliyev Meydanında ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə musiqili kompozisiya təşkil olunmuşdu. Bayram əhval-ruhiyyəli tədbirdə Ağcabədi rayon rəhbərliyi, şəhid ailələləri, müharibə veteranları, idarə və müəssisələrin kollektivləri, yerli ziyalılar, ictimaiyyətin nüamyəndələri iştirak edirdi. Yubiley ab-havasının hökm sürdüyü meydanda tədbirin aparıcıları qonaqları salamlayıb, dahi liderin keçdiyi şərəfli ömür yolu haqqında məlumat verdilər. Sonra tədbir Ağcabədi Regional Mədəniyyət İdarəsinin hazırladığı konsert proqramı ilə davam etdi. Tədbirdə yerli musiqiçilərlə yanaşı, respublikanın Əməkdar artistləri Könül Kərimova, Cabir Abdullayev, muğam müsabiqəsinin qalibləri Ramiq Bayramov, Gülzar Fərəcova, Xəyalə Qafarova, Aşıq Zülfiyyə, Cabbar Musayev ifaları ilə könülləri oxşayıblar. Dahi liderin sağlığında səsləndirdiyi “Küçələrə su səpmişəm” xalq mahnısı, Səməd Vurğunun “Azərbaycan” şeiri tədbirə toplaşanlara duyğulu anlar yaşadıb, coşqu və alqışlarla qarşılanıb. Konsert proqramında ulu öndərə, Azərbaycana, zəfərimizə həsr olunmuş musiqi və şeirlər səsdləndirilib, Heydər Əliyevin çox sevdiyi mahnılar ifa olunub. Konsert proqramı “Aran Ağcabədi” internet televiziyası ilə yayımlanıb. Bu isə ölkədən kənarda yaşayan həmyerlilərimizə tədbiri canlı izləmək imkanı yaradıb.

## Şəmkir



Müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Şəmkirdə keçirilən tədbirə toplaşan rayon icra hakimiyyətinin, idarə və təşkilatların, ictimaiyyətin nümayəndələri əvvəlcə ümummilli liderin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzmüşlər. Ardınca Heydər Əliyev Mərkəzində ulu öndərə həsr olunmuş sərgiyə baxış olub.

Tədbirin rəsmi hissəsisində çıxış edən Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev ümummilli liderin siyasi fəaliyyəti, Azərbaycan xalqı və dövlətçiliyi qarşısında tarixi xidmətləri barədə danışıb. “Heydər Əliyev bütün ömrünü xalqına həsr edib, onun dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan mühüm amildir. Müstəsna xidmətləri ilə əbədilik qazanan Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir”,- deyən R.Tağıyev Heydər Əliyevin hakimiyyətdə olduğu hər iki dövrdə regionların inkişafına xüsusi qayğı göstərdiyini, məhz bu qayğının nəticəsində Şəmkirin Azərbaycanın inkişaf etmiş bölgələrindən birinə çevrildiyini qeyd edib.

Yubiley tədbirinin sonunda Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən sənədli film nümayiş olunub.

## Ağstafa

Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə “Ağstafa Aqrar Sənaye Kompleksi”ndə rayon icra hakimiyyəti tərəfindən təşkil olunmuş mədəni-kütləvi tədbirdə RİH başçısı Seymur Orucov, şəhid ailələri, qazilər, müharibə iştirakçıları, hüquq-mühafizə orqanlarının rəhbərləri, “N” saylı hərbi hissənin əsgər və zabit heyəti, ictimaiyyət nümayəndələri iştirak ediblər. Sanki bütün Ağstafa bu böyük bayrama gəlmişdi…



Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi münasibətilə tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə bayram ab-havasında keçən konsert proqramı ağstafalılar tərəfindən böyük sevinc və coşqu ilə qarşılandı.

Konsert proqramında dahi rəhbərə həsr edilmiş şeirlər, ulu öndərə, Vətənə, Qarabağa ithaf olunmuş musiqi əsərləri səsləndirilib, muğam və xalq mahnıları, nəğmələr ifa olunub.

Konsert proqramının sonunda təşkil olunan atəşfəşanlığı tədbir iştirakçıları böyük maraqla izlədilər.

## Göygöl



Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Göygöl rayonunda keçirilən təntənəli tədbirdən əvvəl Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad edilib. Sonra Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini özündə əks etdirən fotolara və eksponatlara baxış keçirilib.

Tədbirdə çıxış edən Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev Azərbaycan xalqının dahi övladı Heydər Əliyevin ölkəni zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxardığını, qətiyyətli və ardıcıl mübarizəsi ilə onu müstəqilliyə qovuşdurduğunu xüsusi vurğulayıb. O bildirib ki, Azərbaycan xalqı yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan məhz Heydər Əliyev ideyalarının təntənəsidir.

“Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, sivilizasiyaların qovşağında Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar kimi tanıdılması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələridir, – deyən E.Paşayev ulu öndərin siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin Azərbaycanı daha böyük uğurlara çatdırdığını xüsusi qeyd edib.

Sonda ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş “Əsrin adamı–100” filmi təqdim edilib.

## Qazax



Müstəqil Azərbaycanın memarı və qurucusu olan ulu öndər Heydər Əliyevin 100 illik yubileyi respublikamızın hər yerində olduğu kimi, Qazax rayonunda da silsilə tədbirlərlə qeyd edilib. Rayonun Gənclər Evində keçirilən “Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir” mövzusunda tədbirdə Qazax Rayon İcra Hakimiyyətinin rəhbərliyi, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, təhsil, səhiyyə, mədəniyyət işçiləri, şəhid ailələri, müharibə əlilləri, media nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyevin adını daşıyan parkda olmuş, ulu öndərin abidəsi önünə gül dəstələri düzərək dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla anmış, onun adını daşıyan mərkəzi ziyarət etmişlər.

Sonra tədbir iştirakçıları Qazax Gənclər Evinin foyesində ulu öndər Heydər Əliyevin Qazax rayonuna səfərlərini özündə əks etdirən foto-sərgiyə baxmışlar.

Tədbirdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov ulu öndərin həyat və fəaliyyəti haqqında ətraflı danışıb, onun keçdiyi yolun bir örnək, bir nümunə olduğunu diqqətə çatdırıb. “İllər, əsrlər keçəcək, Heydər Əliyev dühası, şəxsiyyəti doğma xalqının qəlbində əbədi yaşayacaqdır”, – rayon rəhbəri deyib.

## Samux



Samuxda ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə təşkil olunmuş konsert proqramını minlərlə sakin izləyib.

Heydər Əliyev adına istirahət parkında keçirilən musiqili tədbirdə Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, hüquq- mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər və ictimaiyyətin nümayəndələri izləyib.

Yubiley tədbirində əvvəlcə ümummilli lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra tanınmış müğənnilərin ulu öndərə, Vətənə və Azərbaycana həsr olunmuş musiqi nümunələri, mahnılar iştirakçılara xoş ovqat bəxş edib.

Konsert möhtəşəm atəşfəşanlıqla yekunlaşıb.

***Səhifəni hazırladılar: “Xalq qəzeti”nin müxbirləri:
İmran HƏSƏNQALA, İlqar HƏSƏNOV,
Hamlet QASIMOV, Pünhan ƏFƏNDİYEV***



# Türkiyədə seçkilər: 14 maya 2 gün qalır

Türkiyə böyük və qüdrətli dövlətdir. Yenilməz türk xalqı tarixin ən çətin sınaqlarından üzüağ çıxıb, hər dəfə Vətən və torpaq qarşısında borcunu ləyaqətlə yerinə yetirib. Vətən yolunda şəhid olan əsgərlərin valideynləri öz acı kədərinə dözərək "Vətən sağ olsun!" deyirlər. Çağdaş dünyanın da çox az yerində türklər qədər vətənpərvər və dəyanətli insanlara rast gəlmək olar!

**Hər bir seçki prosesi, idman terminləri ilə ifadə etsək, uzun bir marafona bənzəyir. Hər şeyin əvvəli olduğu kimi, sonu da olur. Türkiyədə də seçkilər artıq özünün finiş mərhələsinə yaxınlaşır. Cəmiyyətdə həyəcan və gərginlik artır.**

Bəli, cəmi iki gündən sonra qardaş ölkənin vətəndaşları öz seçimlərini edəcəklər. Bu, ölkənin taleyi üçün taleyüklü seçimdir. Budəfəki seçkilərdə də favoritlər və autsayderlər var. Lakin səsvermənin nəticələrini əvvəlcədən proqnozlaşdırmaq çətindir. Necə deyərlər, hər şey "sandıq" başında həll olunur.

Hər anın öz hökmü var. Siyasətdə çox şey bir an içində dəyişə bilər. Türkiyənin doqquzuncu prezidenti rəhmətlik Süleyman Dəmirəlin qanadlı ifadəyə çevrilmiş belə bir sözü var: dün dündür, bu gün bugündür! Nə etmək olar, həyat belədir.

Bu günlərdə prezidentliyə namizədlər tez-tez müxtəlif şəhərlərə səfərlər edir, seçicilərlə görüşür, öz seçkiqabağı proqramlarını izah və şərh edirlər. Onlar seçiciləri öz tərəflərinə çəkmək üçün çoxlu vədlər verirlər. Seçki texnoloqları qeyd edirlər ki, bütün seçkilərdə müəyyən populizm cəhdləri olur və bu, təbiidir.

Türkiyə cəmiyyəti siyasi cəhətdən kifayət qədər yetkindir, əhalinin böyük əksəriyyəti prezidentliyə iddiaçıların hansı bilik, bacarıq və səriştəyə malik olduqlarını yaxşı bilir. Ciddi, yetkin seçici üçün ölkənin milli maraqları hər şeyin fövqündədir. Qalan xırda problemlər zamanla öz həllini tapacaq.

Budəfəki seçkilərin əsas özəlliyi ondadır ki, seçicilər dövlət başçısı ilə bərabər, ölkə parlamentinin üzvlərini də seçməlidirlər. Təbii bu, seçkilərlə bağlı ictimai-siyasi gərginlik daha da artır. Hazırkı iqtidar son 21 ildə keçirilən 15 müxtəlif seçkilərdə qələbə qazanıb. Bu dəfə də bu ənənəni qoruyub saxlamaq mümkün olacaqmı? Bunu yalnız səsvermədən sonra biləcəyik.

Türkiyədə builki seçki siyahılarına səsvermə hüququ olan 62 milyon vətəndaşın adı və soyadı qeydə alınıb. Onların arasında beş milyon gənc seçici həyatlarında ilk dəfə olaraq səsvermədə iştirak edəcək. Ölkənin gənc vətəndaşlarının hansı namizədə daha çox üstünlük verməsindən çox şey asılıdır.

Yeri gəlmişkən, prezidentliyə namizədlər gənc seçicilərin "oy"larını, yəni səslərini qazanmaq üçün bir sıra cəlbedici təkliflər irəli sürüblər. AKP lideri R.T.Ərdoğanın gənc vətəndaşları partiyasının ölkənin gələcək inkiafı ilə bağlı irəli sürdüyü "Türkiyə əsri" layihəsinə fəal qatılmağa çağırıb. Ana müxalifətin başçısı Kamal Kılıçdaroğlu isə tez-tez çıxışlarında gənclərə "ədalət və rifah dolu ölkə" vəd edir.

Yeri gəlmişkən, dünən "Turkish Airlines" aviakompaniyasının təyyarəsi xarici ölkələrdə təşkil olunan səsvermədə iştirak edən Türkiyə vətəndaşlarının bülletenlərini Ankaraya gətirib. "Anadolu" agentliyindən mediaya bildirilib ki, həmin bülletenlər mayın 14-ü səsvermə bitənə qədər təhlükəsiz yerdə saxlanılacaq.

Xəbərdə sonra bildirilir ki, Fransa, Almaniya, İsveçrə və Avstriyadan gətirilən 532 mindən çox bülleteni Yüksək Seçim Qurumunun (MSK) əməkdaşları, partiya nümayəndələri və diplomatik kuryerlər müşayiət edib. Dünən gün ərzində digər ölkələrdən də bülletenlərin gətiriləcəyi gözlənilirdi. MSK-nın məlumatına görə, xaricdə qeydiyyatdan keçən 3,4 milyon seçicinin, təxminən, 50 faizi – 1,69 milyon nəfərdən çoxu seçkilərə qatılıb.

Biz, Azərbaycan vətəndaşları olaraq, əlbəttə, Türkiyəni çox sevirik. Bu, heç kəs üçün sirr deyil. Türkiyə son illər ərzində bütün sahələrdə möhtəşəm uğurlar qazanıb. 2020-ci ilin payızında 44 günlük şanlı savaş günlərində türk qardaşlarımız bizə mənəvi və siyasi dəstək veriblər.

Biz Türkiyəyə atılan hər bir namərd daşına qarşı öz sinəmizi hər an irəli verməyə hazırıq. Çox arzu edirik ki, qardaş ölkə hər zaman güclü və qüdrətli olsun, orada inkişaf və tərəqqinin sürəti daha da artsın.

Planetimizdə yeni dünya düzəni formalaşır. Düşünürük ki, bu seçkilərin nəticələri Türkiyənin öz layiqli yerini tutmasına böyük təsir göstərə bilər. Son qərarı, əlbəttə, türk vətəndaşları özləri verəcəklər. Bizim isə qəlbimizdən bir nida qopur: bütün hallarda türk dünyası üçün xeyirlisi olsun!

*Məsaim ABDULLAYEV,*
*"Xalq qəzeti"*

### *Ekspert rəyi*



**Rüfət RÜSTƏMOV,**
**BDU-nun türk filologiyası kafedrasının müdiri, professor:**

Məlumdur ki, mayın 14-də Türkiyə ərazisində prezident və parlament seçkiləri keçiriləcək. Dövlət başçısı postu uğrunda dörd namizəd – ölkənin hazırkı Prezidenti Rəcəb Tayyib Ərdoğan, Məmləkət Partiyasının sədri Məhərrəm İncə (dünən qəzetimiz çapa hazırlanarkən məlum oldu ki, M.İncə namizədliyini geri çəkib – redaktor), "Millət İttifaqı"nın namizədi və Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlu və Ata İttifaqının namizədi Sinan Oğan mübarizə aparır.

Əgər prezident seçkilərinin ilk turunda namizədlərin heç biri 50 faizdən çox səs toplaya bilməsə, mayın 28-də səsvermənin ikinci turu keçiriləcək. Böyük ehtimalla seçkilər birinci turda başa çatacaq. Parlament seçkilərində 26 partiya iştirak edəcək.

Hesab edirəm ki, 14 may seçkiləri Türkiyənin ictimai-siyasi həyatında böyük iz qoyacaq. Bu mühüm siyasi kampaniya artıq özünün finiş mərhələsinə yaxınlaşır. Reallıq budur ki, Türkiyə yol ayrıcındadır və bununla bağlı cəmiyyətdə böyük bir gərginlik hökm sürür.

Türklər tarixdə böyük dövlətlər, imperiyalar qurmuş xalqdır. Onlar üçün torpaq, Vətən anlayışları hər şeydən üstündür. Əminəm ki. Türkiyə dövləti və xalqı bu çətin sınaqdan da üzüağ çıxacaq.

Türkiyədə seçkilər yüksək seçici fəallığı şəraitində keçir. 2018-ci il prezident seçkilərində səsvermə hüququ olan ölkə vətəndaşlarının 85 faizindən çoxu səsvermə prosesində iştirak edib. İnanıram ki, bu dəfə də türk vətəndaşlarının böyük əksəriyyəti öz vətəndaşlıq borcunu yerinə yetirəcək.

Hər kəs öz məsuliyyətini yaxşı başa düşür. Bu gün doğru seçim etmək son dərəcə vacibdir. Seçkilərdə ən layiqli namizəd qələbə çalarsa, bundan bütün xalq qazanacaq.

Türkiyə son onillər ərzində çox güclənib, təkcə regionda deyil, bütün dünyada söz sahibinə çevrilib. Türkiyənin güclü və qüdrətli olmasını istəməyənlər onun içərisində nifaq salmaq istəyirlər. Türkiyədəki seçkilərə xaricdən müdaxilə etmək cəhdləri müşahidə olunur. Bu, yolverilməzdir.

# Türkiyə dünyada hərbi gücə çevrilir

**"Azərbaycanın Qarabağda qazandığı zəfərdə Türkiyə hərbi sisteminin və hərbi sənayesinin tətbiqi önəmli rol oynadı. Bu uğur bütün Türk dünyasında bir canlanma yaratdı, türk dövlətlərinin birliyini gücləndirdi". Türkiyəli hərbi ekspert, ehtiyatda olan polkovnik, Altınbaş Universitetinin əməkdaşı, doktor Eray Güclüer Bu fikirləri "Xalq qəzeti"nə açıqlamasının davamında bildirdi:**



–2016-cı ildə Türkiyədə baş vermiş hərbi çevrilişə cəhddən sonra ölkənin hərbi sənayesi yeni inkişaf mərhələsinə qədəm qoydu. Son illərdə ABŞ-ın Türkiyəyə qarşı hərbi sanksiyalar tətbiq etməsi də "pis qonşu bizi ev sahibi etdi" prinsipi ilə ölkəmizə bu sahədə xeyli nailiyyət qazandırıb. Umumiyyətlə, Qərb və ABŞ 1960-cı illərdən etibarən zaman-zaman Türkiyəyə hərbi sanksiyalar tətbiq edib. Bunun ən bariz nümunəsi 1974-cü ildə Kıbrıs Barış Hərəkatı zamanı ölkəmizə sanksiya tətbiq olunmasıdır. Odur ki, 1975-ci ildən başlayaraq, Türkiyə hərbi sənaye sahəsində əhəmiyyətli inkişaf mərhələsi keçib.

Son illərdə ABŞ-ın Türkiyəyə "F-16" döyüş təyyarələri satışını dayandırması, ölkəmizin Rusiyadan "S-400" zenit-raket komplekslərini (ZRK) alması, bundan sonra Ankaranın NATO üçün önəmli olmaması ittihamları, ABŞ-ın Türkiyəni "F-35" qırıcılarının istehsalı proqramından çıxarması və belə bəhanələrlə hərbi sanksiyaların tətbiqi dövlətimizin hərbi sənaye sahəsinə ciddi yatırımlar etməsinə və nəticədə, uğurlar qazanmasına səbəb oldu. Pilotsuz uçuş aparatları (İHA) və silahlı pilotsuz uçuş aparatlarının (SİHA) istehsalı ilə Türkiyə dünyada yüksələn bir gücə çevrildi. Müdafiə sənayesi sahəsində "Akıncı", "Hürkuş", "Singur", "Aksungur" kimi adlar, adətən dünyada bir marka olaraq tanınmağa başlandı.

Bundan əlavə, Türkiyə Silahlı Qüvvələri, xüsusilə, zirehli personal daşıyıcı (ZPT), tank və raket sektorlarının milli sərmayələri və yerli istehsalatları ilə də məşğul oldu. Bu sahələrdə gələcəyin mühüm tədarükçüsünə namizəd olan Türkiyə gündən-günə azalan xarici asılılığı ilə diqqət çəkir. Yaxın gələcəkdə yerli, yəni, milli döyüş təyyarələrini buraxmağa hazırlaşan və işlərini sürətlə davam etdirən Türkiyə, başda "F-16" döyüş təyyarələri olmaqla ABŞ-dan asılılıqdan böyük ölçüdə xilas olacaq, hətta bu sahədə dünyanın aparıcı ölkələrindən birinə çevriləcək.

Eray Güclüer daha sonra bildirdi ki, Türkiyə və Azərbaycan öndə olmaqla, hərbi gücün artması ilə Türk Dövlətləri Təşkilatı (TDT) yeni dünya sisteminin üçüncü qütbünə çevrilə bilər:

–Türkiyənin hava hücumundan müdafiə sistemi başda olmaqla, hərbi sənaye sahəsində yerli və milli istehsalını gücləndirməsi və yeni inkişaf mərhələsinə qədəm qoyması dövlətimizi dünyada qlobal gücə çevirməkdədir. Bu baxımdan Türkiyə təkcə özünün deyil, bütün türk dünyasının qarantı olub. Bu mərhələdə Türkiyə və Azərbaycan arasında imzalanan hərbi müqavilələr, ölkələrimizin orduları ilə eyni konseptlə dizayn edilməsi əhəmiyyətli bir addım oldu. Əlbəttə, bu müttəfiqliyin digər qardaş dövlətlərə də tətbiq olunması türk dünyasının gücünü artıracaq.

Təkcə hərbi deyil, iqtisadiyyat, texnologiya, təhsil, elm, dil, tibb, kənd təsərrüfatı kimi mühüm sahələrdə birgə fəaliyyət türk dünyasına böyük töhfə verəcək. Bu baxımdan TDT-nin 2040 baxışını yetərincə dəyərləndirmək də türk dünyasının gücünə güc qatacaq. Biz türkün dünya liderliyində yer almasına inanmalıyıq və bu strategiya üzrə hərəkət etməliyik.

*Hazırladı:*
*Mehparə SULTANOVA,*
*"Xalq qəzeti"*

**Ankara**

**Türkiyə Milli Müdafiə Nazirliyinin yaydığı məlumata əsasən, dünən İstanbulda Rusiya, Ukrayna, Türkiyə və BMT arasında taxıl sazişinin uzadılması və taxıl və gübrə tədarükünə dair sazişin Rusiya hissəsinin icrası ilə bağlı iki gün davam edən danışıqlar yekunlaşıb. Türkiyə mediasının xəbərinə görə, Ukrayna, Rusiya Federasiyası və Birləşmiş Millətlər Təşkilatı arasında "Taxıl sazişi"nin uzadılması barədə müzakirələr müsbət məcrada davam edib. Sazişin qarşıdakı dövrdə də işlərin texniki səviyyədə, dördtərəfli formatda davam etdirilməsi tərəflər arasında razılaşdırılıb. Eyni zamanda Ukrayna limanlarında qalan Türkiyənin ticarət gəmilərini və ekipajlarını təxliyə etmək barədə razılığa gəlinib. Bu əməliyyat həm də Ukraynada qalan digər ölkə gəmilərinin təxliyəsi üçün nümunə yol açacağını şərtləndirib.**

# "Taxıl sazişi"nin müddəti uzadılmasa...

Dünən Türkiyənin milli müdafiə naziri Hulusi Akar və Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov Konya şəhərində keçirilən "Anadolu Qartalı–2023" beynəlxalq taktiki-uçuş təlimlərini izləyiblər. Təlim çərçivəsində keçirilən "Yüksək səviyyəli müşahidəçi günü"ndə çıxış edən Hulusi Akar Rusiya–Ukrayna müharibəsinin yaratdığı beynəlxalq ərzaq böhranının həlli üçün Türkiyənin təşəbbüsləri ilə yaradılan taxıl dəhlizi məsələsini qiymətləndirib və Türkiyənin dəstəyi ilə imzalanan "Qara Dəniz Taxıl Təşəbbüsü" ilə 30 milyon tondan çox taxıl məhsullarının ehtiyacı olan ölkələrə daşındığını bildirib.

Hulusi Akar deyib:"Protokolun müddəti mayın 18-də başa çatır. Bu müddət bitməmiş müqavilənin davam etməsi üçün səylərimizi davam etdiririk. Türkiyə, Rusiya və Ukrayna müdafiə nazirlərinin müavinləri dünən və bu gün BMT müşahidəçiləri ilə birlikdə işlərini davam etdirirlər. Müqavilənin müddətinin uzadılmasını arzulayırıq. Bu hamımıza fayda verir".

Xatırladaq ki, ötən il iyulun 22-də İstanbulda qida və gübrələrin beynəlxalq bazara tədarükü ilə bağlı sənədlər paketi imzalanıb. İlkin olaraq müqavilələr 120 gün müddətinə bağlanılıb, ötən ilin noyabrında isə eyni müddətə uzadılıb. "Taxıl müqaviləsi"nin vaxtının bu ayın 18-də başa çatacağı qərara alınıb.

Türkiyə Prezidentinin rəsmi nümayəndəsi İbrahim Kalın tərəfindən görüş ərəfəsində "Habertürk" telekanalına taxıl sövdələşməsinin uzadılacağına şansların olduğu və bu istiqamətdə lazımi səylərin göstərildiyi bildirilib.

ABŞ Dövlət Departamenti isə Qara dəniz üzrə "Taxıl sazişi" təşəbbüsünün davam etdirilməsinin zəruriliyini qeyd edib və tərəfləri onun uzadılmasına çağırıb. Bununla bağlı "İnterfax Ukraina" xəbər verir ki, bu barədə ABŞ Dövlət Departamenti bəyanatında gəmilərin Ukrayna limanlarına daxil ola bilməsi və daha çox ərzağın dünya bazarlarına çıxarılması üçün bu təşəbbüsün uzadılmasına ehtiyac duyulduğunu vurğulayıb. ABŞ dövlət katibi Antoni Blinken də Rusiyanın Ukrayna ilə müharibədə aclıqdan silah kimi istifadə etməyi dayandırmağının zəruriliyini diqqətə çatdırıb.

Yeri gəlmişkən, 2022-ci il iyulun 22-də İstanbulda qida və gübrələrin beynəlxalq bazara tədarükü ilə bağlı sənədlər paketi imzalanıb. İlkin olaraq müqavilələr yuxarıda qeyd etdiyimiz kimi, 120 gün müddətinə bağlanılıb, ötən ilin noyabrında isə həmin müddətə uzadılıb. Bu il martın 18-də Rusiya sazişin müddətini 60 gün uzadacağını elan edərək, bunun BMT ilə imzalanmış memorandumun icrasını qiymətləndirmək üçün kifayət qədər vaxt olacağı barədə xəbərdarlıq edib.

Rusiya Xarici İşlər Nazirliyinin məlumatında isə sövdələşmənin uzadılması ilə bağlı növbəti qərarın "Rosselxozbank"ın SWIFT sisteminə yenidən qoşulmasından, kənd təsərrüfatı texnikasının, ehtiyat hissələrinin və xidmətlərin tədarükünün bərpasından, sığorta və təkrar sığortaya qoyulan məhdudiyyətlərin aradan qaldırılmasından, sığorta müqaviləsinin ləğvindən asılı olacağı vurğulanıb.



Sonda bir məqamı da xatırlatmaq istərdik. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) proqnozuna dair məlumatda bu il dünyada 2 milyard 785 milyon ton səviyyəsində proqnozlaşdırılan ümumi buğda istehsalı indiyə qədərki ikinci ən böyük istehsal həcmi ola bilər.

Bildirilir ki, aprel ayında Avropada əksər ölkələrdə yüksək miqdarda yağıntıların olması torpağı "doyuzdurub" və bu, 2023-cü ildə buğda məhsulu üçün perspektivləri yaxşılaşdırıb.

Bunun nəticəsində FAO-nun Avropa İttifaqı üzrə hasilat proqnozu bir qədər artırılaraq 139,5 milyon tona çatdırılıb. Eyni zamanda İspaniya və Portuqaliyada yağıntı çatışmazlığının nəticələri hasilatın perspektivlərinə müəyyən qədər kölgə salıb.

"Rusiyada yağıntıların bərabər paylanması sayəsində, ümumilikdə, zəmilərin vəziyyəti yaxşıdır. 2023-cü ildə istehsal təxminən 83 milyon ton təşkil edəcək ki, bu da 2022-ci ilin rekord göstəricisindən aşağıdır", – təşkilatın məlumatında deyilir.

FAO-nun 2022–2023-cü illər mövsümü üçün qlobal taxıl istehsalı üzrə hazırkı proqnozu ötən ayın proqnozu ilə müqayisədə 7,7 milyon ton artırılıb. Hazırda o, 2 milyard 785 milyon ton təşkil edir ki, bu da ötən ilki rekordla müqayisədə yenə də 1 faiz azdır.

*"Xalq qəzeti"*

# Pakistan Ali Məhkəməsi İmran Xanın həbsini qanunsuz elan edib

**Pakistan Ali Məhkəməsi sabiq Baş nazir İmran Xanın həbsini qanunsuz elan edib. Bu barədə yerli "Geo Television Network (Geo TV) məlumat yayıb.**

Qeyd olunub ki, Ali Məhkəmə İmran Xanın dərhal azadlığa buraxılması qərarını verib. Xatırladaq ki, ölkənin sabiq Baş naziri və müxalif Pakistan Ədalət Hərəkatı Partiyasının rəhbəri İmran Xan dünən məhkəmə qərarı ilə 8 günlük həbs edilib. İmran Xan korrupsiyada, ona və həyat yoldaşına məxsus "Əl-Qadir" fondundan istifadə edərək çirkli pulların yuyulmasında ittiham olunur.

Sabiq hökumət başçısının rəhbərlik etdiyi dövrdə Böyük Britaniyadan köçürülən 60 milyard rupi (təxminən 210,6 milyon dollar) məbləğinin leqallaşdırılmasına görə İmran Xan adı açıqlanmayan daşınmaz əmlak firmasından milyardlarla rupi pul vəsaiti almaqda təqsirli bilinir.



Onun həbsi Pakistanın bir sıra iri şəhərlərində müxalifətin kütləvi etirazlarına səbəb olub. Pakistanın bir sıra bölgələrində PTİ tərəfdarları ilə polis arasında şiddətli toqquşmalar baş verib.

*"Xalq qəzeti"*

Müsahibə

# Qafqazda böyük tibb müəssisəsi – Yeni klinika

**Müasir dövrümüzdə bütün sahələrdə olduğu kimi, səhiyyədə də gündən-günə inkişaf edən, əhalinin ehtiyaclarını asanlaşdıran yeni xidmətlər yaradılıb. Avtomatlaşdırılmış elektron xidmətlərin tibb sahəsində də tətbiqi Azərbaycanın əsas prioritetlərindəndir.**

Yeni klinika bu xidmətlərin yetərincə tətbiq edildiyi tibb ocaqlarımızdandır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılan Yeni klinika 2020-ci il martın 28-dən fəaliyyət göstərir. Dövlət başçısının tibb müəssisəsinin açılışında bildirdiyi kimi, bu xəstəxana Azərbaycanda təchizat, avadanlıq və göstəriləcək xidmət baxımından aparıcı xəstəxanadır.

Qeyd etməliyik ki, müalicə-müayinə işini yüksək səviyyədə və dəqiqliklə yerinə yetirməyə imkan verən avadanlıqlarla təchiz olunan tibb müəssisəsinin kollektivi həm koronavirus pandemiyası, həm də Vətən müharibəsi dövründə böyük əzmkarlıq göstərmişdir.

Müsahibimiz Yeni klinikanın baş həkimi Cavid Paşayevdir. Xatırladaq ki, C.Paşayev 2022-ci il iyulun 15-dən klinikaya rəhbərlik edir.



***– Doktor, artıq 10 aydır ki, belə böyük səhiyyə müəssisəsinə rəhbərlik edirsiniz. Sizə çətin deyil ki?***

– İş görülən yerdə çətinliyin olması təbiidir. Çalışıb onu aradan qaldırmaq rəhbərliyin əsas vəzifəsidir. Bildirmək istəyirəm ki, tibb müəssisəsində kifayət qədər gənc mütəxəssis işləyir. Müxtəlif xarici ölkələrdə tibbi təhsil alıb təcrübə keçən, bacarıqlı peşəkarlara həmişə, hər yerdə ehtiyac duyulur. Biz də ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu gənclər siyasətini rəhbər tutub, belə gənclərlə görüşlər keçirir, onların fəaliyyətilə yaxından maraqlanır, təkliflərini dinləyirik. Mərkəzimizdə gənc kadrlarla yanaşı, şəhid ailəsi üzvlərinin, qazilərin və Vətən müharibəsi iştirakçılarının da işlə təmin olunduqlarını bildirmək istəyirəm. Şəhid ailələrinin üzvlərinə, qazilərə, Qarabağ müharibəsi iştirakçılarına hörmət, ehtiram, diqqət və qayğı göstərməyi özümüzə borc bilir, imkan daxilində onların işlə təminatına, eyni zamanda müalicəsinə kömək etməyə çalışırıq.

***– Üçüncü ildir ki, ölkəmizdə İcbari Tibbi Sığorta (İTS) tətbiq edilir. Klinikada indiyədək nə qədər vətəndaş İTS-in xidmətlər zərfindən yararlanıb?***

– Klinika İcbari Tibbi Sığorta sisteminin tətbiq olunduğu tibb müəssisələrinin siyahısına 2022-ci il iyunun 6-dan daxil olub. O gündən klinikaya müraciət edənlərin sayı günbəgün artır. Son üç ay ərzində icbari tibbi sığortanın xidmətlər zərfi çərçivəsində 32 min 503 nəfər ambulator mərkəzə müraciət edib. Tibb müəssisəsinə icbari tibbi sığorta üzrə stasionar tibbi xidmət üçün müraciət edən 952 nəfərə lazımı müayinə və müalicə xidməti göstərilib. Müxtəlif xəstəliklərlə bağlı isə pasiyentlərdən 994 nəfər üzərində cərrahi əməliyyat tətbiq edilib. Əlavə edim ki, ilin birinci rübündə mərkəzə müraciət edən vətəndaşlara, ümumilikdə, 158 min 54 ambulator tibbi xidmət göstərilib.

***– Mərkəzdə hansı mürəkkəb əməliyyatlar icra olunur?***

– Günü-gündən inkişaf edən Yeni klinikada İTS çərçivəsində hər cür əməliyyatlar uğurla icra olunmaqdadır. Mərkəzdə ilk dəfə olaraq icbari tibbi sığorta ilə "laparoskopik düz bağırsağın ön rezeksiyası", cərrahiyyənin üst səviyyə əməliyyatlarından hesab olunan laparoskopik yolla "Heller miyotomiya + Dor Fundoplikasiya" (nadir rast gəlinən udma çətinliyi), böyük bir cərrahi komanda ilə torakolaparoskopik üsulla "İvor-Lewis" proseduru, "Radikal sistektomiya" (sidik kisəsinin çıxarılması) əməliyyatı, "Laparoskopik çox aşağı ön rezeksiya + koloanal anastomoz + loop ileostomiya açılması" əməliyyatı, ikitərəfli nefroureterektomiya (hər iki böyrəyin sidik axarlarının böyük hissəsi ilə bərabər çıxarılması) əməliyyatı və xidmətlər zərfi daxilində ilk dəfə olaraq koronar angioqrafiya proseduru icra olunub. Bu əməliyyatların aparılması kollektivdə necə bacarıqlı, peşəkar, işinin öhdəsindən yüksək səviyyədə gələn həkimlərin olmasının göstəricisidir.



***– Xəstəxanada tibbi personalın bilik və bacarıqlarının artırılması istiqamətində hansı işlər görülür?***

– 2022-ci ilin sentyabr ayından etibarən klinikada fəaliyyət göstərən tibbi personala və qeyri-tibbi əməkdaşlara ünsiyyət bacarıqları, xidmət mədəniyyəti, etik davranış qaydalarına dair təlimlər keçirilir. Eyni zamanda xəstəxanada ayda iki dəfə tibbi seminarlar təşkil olunur. Artıq bu ay beşinci tibbi seminarın keçirildiyini qeyd etmək istəyirəm. Klinika rəhbərliyi və əməkdaşlarının iştirakı ilə baş tutan tibbi seminarlarda müxtəlif mövzular araşdırılaraq müzakirəyə çıxarılır. İş prosesində səsləndirilən təkliflərə uyğun addımlar atılır.

***– Klinikada kollektivin işi yalnız xəstələrə xidmətləmi bitir?***

– Xeyr, başlıca vəzifəmiz vətəndaşların sağlamlığı keşiyində durmaq olsa da, ötən ilin sentyabr ayından klinikada bir sıra sosial layihələr də həyata keçirmişik. İlk tədbirimiz Yeni Azərbaycan Partiyasının yaranmasının 30 illiyinə həsr olunub. Sonra Qarabağ müharibəsinin şəhidlərini anmaq, torpaqlarımızın işğaldan azad edilməsi və Zəfər Günü ilə bağlı "Zəfərin fatehləri" adlı tədbiri keçirmişik. Ümummilli lider Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə bağlı anım mərasimi, bugünlərdə isə TƏBİB-in icraçı direktoru Vüqar Qurbanovun iştirakı ilə "Heydər Əliyev ili"nə həsr olunmuş tədbirdə ulu öndərin büstünün təntənəli açılış mərasimi təşkil edilib.

Klinikada fəaliyyət göstərən tibb və qeyri-tibb personalın pandemiya və Vətən müharibəsi dövründə vəzifə öhdəliklərini layiqincə yerinə yetirdiklərinə və əmək funksiyalarının icrasında fərqləndiklərinə görə bir sıra əməkdaşların təltif edilməsi mərasimi təşkil olunub. Yeni klinikanın təşkilatçılığı ilə "Serebral iflic və cəmiyyət" mövzusunda forum keçirilib.

Klinikanın əməkdaşları arasında daxili kommunikasiyanın inkişaf etdirilməsi üçün başqa maraqlı layihələr də təşkil olunub. Belə ki, klinikanın həvəskar futbolçu əməkdaşları arasında təşkil olunan ilk mini futbol turnirinə start verilib.

Qeyd edək ki, Yeni klinika tibb müəssisəsi Qafqazın ən böyük xəstəxanalarından biri hesab olunur. 300-ə yaxın həkim və tibbi heyətin çalışdığı bu tibb ocağında hazırda ümumi cərrahiyyə, terapiya, təcili və təxirəsalınmaz tibbi yardım, reanimasiya şöbələri və poliklinika fəaliyyət göstərir. Poliklinikada, həmçinin urologiya, kardiologiya, ümumi cərrahiyyə, ürək-damar cərrahiyyəsi, neyrocərrahiyyə, LOR, qastroenterologiya, radiologiya, revmatologiya, endokrinologiya, ginekologiya, nevrologiya və pediatriya şöbələri poliklinik olaraq vətəndaşların xidmətindədir.

***Söhbəti yazdı: Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"***

"Xarıbülbül" festivalının gündəliyi

# Mehmandarovların malikanəsində simfonik konsert

**Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı çərçivəsində mayın 11-də Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri konsert proqramı ilə çıxış edib.**



Mədəniyyət Nazirliyindən aldığımız məlumatda bildirilir ki, konsert proqramı Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra iki gün əvvəl açılışı olan Mehmandarovların malikanə kompleksində təşkil olunub. Ən diqqətçəkən məqamlardan biri də konsertə Mehmandarovlar nəslinin nümayəndəsi, Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, beynəlxalq müsabiqələr laureatı Mustafa Mehmandarov dirijorluq edib.

Doğma ata-baba ocağında olmaqdan qürur hissi keçirdiyini deyən dirijor təəssüratını belə ifadə edib:

–Belə bir tədbirin iştirakçısı olduğum üçün çox xoşbəxtəm. Hazırkı konsert proqramı da "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı çərçivəsində təqdim olundu. Açığını deyim, ağlıma gəlməzdi ki, nə vaxtsa Şuşada konsert verə bilərəm. Çalışdığım Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin heyəti ilə reallaşan bu konsert şəxsən mənə də xüsusi zövq yaşatdı.

Bu malikanənin yüksək səviyyədə təmir-bərpasına görə Prezidentimizə dərin təşəkkürümü bildirirəm. Malikanədə bütün işlər zövqlə, bütün incəliklə işlənilib. Ümid edirəm ki, bu məkan bundan sonra da adından göründüyü kimi, qonaqlar – mehmanlar üçün açıq olacaq, qonaqlı-qaralı olacaq, hər zaman bu məkanda möhtəşəm tədbirlər keçiriləcək. Eyni zamanda, bizim tarixin də gələcək nəsillərə ötürülməsində bu məkan böyük rol oynayacaq.

Konsertdə Üzeyir Hacıbəylinin "Arazbarı", Fikrət Əmirovun "Nizaminin xatirəsinə" simli simfoniyası, Niyazinin "Lirik rəqs"i, Tofiq Quliyevin "Laylay", Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasından fraqmentlər və xalq mahnısı "Sarı gəlin" səsləndirilib.

***"Xalq qəzeti"***

**Nyu- York şəhərində yerləşən BMT-in Baş Qərargahında Baş Assambleyanın vərəm və universal tibbi təminatla bağlı dinləmələrində "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru Pərvanə Vəliyeva iştirak edib.**

# Azərbaycan təmsilçisi BMT-də səhiyyə müzakirəsində




Belə ki, 2023-cü il sentyabr ayında BMT-in Mənzil Qərargahında Baş Assambleyanın vərəmlə bağlı yüksək səviyyəli görüşü keçiriləcək. BMT üzvü olan ölkələrin liderləri 2030-cu ilədək vərəmə son qoymaq üçün hazırlanacaq siyasi bəyannaməyə imza ataraq öhdəliklər götürəcəklər. Bəyannamə qəbul olunmadan öncə BMT bir çox ölkədən mütəxəssisləri dəvət edərək vərəmlə bağlı onların dinləmələrdə iştirakını təmin edib.

İclasda P.Vəliyeva Azərbaycan Vərəm əleyhinə QHT Koalisiyasına üzv olan Vətəndaş Cəmiyyəti təşkilatlarını və vərəmin təsirinə məruz qalan icma nümayəndələrini təmsil edib.

Vərəmlə mübarizə aparan vətəndaş cəmiyyəti təşkilatlarının siyasi bəyannamədən gözləntiləri 2030-cu ilədək ən son beynəlxalq protokollara əsasən, vərəmli xəstələrə profilaktika, diaqnostika, müalicə və qayğının təmin edilməsidir.

***Z.HÜSEYNOVA, "Xalq qəzeti"***

# DOST bölgələrdə təlim keçir

**DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi əhalinin sosial sahə üzrə elektron xidmətlərə dair savadlılığının artırılması üçün bölgələrdə təlimləri davam etdirir. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər. Xəbərdə deyilir ki, növbəti təlimlər Göygöl rayonundakı Heydər Əliyev Mərkəzində və Daşkəsən Rayon Mədəniyyət Mərkəzində keçirilib.**

Təlimlər Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planının müvafiq bəndinə əsasən regionlarda əhalinin rəqəmsallaşma istiqamətində bilik və bacarıqlarının artırılmasına xidmət edir.

Qeyd edək ki, ötən aydan başlayan, artıq Bərdə və Füzuli rayonlarında keçirilmiş təlimlərdə yerli sakinlərə sosial sahə üzrə e-xidmətlər və onlardan istifadəyə dair praktik məlumatlar verilir, sualları cavablandırılır. Təlimlər ölkəmizin digər bölgələrində də təşkili ediləcək.

Nazirlikdən, həmçinin bildirilir ki, 2023-cü ilin yanvar-aprel ayları ərzində 58 min 800 pensiya, müavinət, təqaüd təyinatı elektron sistem üzərindən proaktiv qaydada aparılır. Onlardan 12 min 800-ü pensiya, 46 mini müavinət və təqaüd təyinatı olub.

Qeyd edək ki, nazirlik 2019-cu ilin əvvəlindən başlayaraq pensiyaların, sonralar müavinət və təqaüdlərin təyinatını elektronlaşdırılıb. Həmin e-təyinat sistemləri vətəndaşların sosial təminat növlərinə hüquqları yarandığı halda müraciət olunmadan və sənəd təqdim edilmədən müvafiq təyinatların e-sistem üzərindən avtomatik aparılmasına imkan verir.

***H.ZƏRİFƏ, "Xalq qəzeti"***


## "Zəyəm Texnologiyalar Parkı" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da (AZ5730) Şəmkir rayonu, Zəyəm Şəhər Tipli Qəsəbədə, S.Vurğun küçəsi 24 nömrəli ünvanda "Zəyəm Texnologiyalar Parkı" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. "Zəyəm Texnologiyalar Parkı" ASC-nin 2022-ci il üçün maliyyə hesabatı.
2. Digər cari məsələlər.

Qeyd:

• Səhmdarlar illik ümumi yığıncağın gündəliyinin materialları ilə ümumi yığıncaq zamanı tanış ola bilərlər.

• Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, hər bir səhmdar ümumi yığıncaqda iştirak hüququnu özü və ya nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Sonuncu halda nümayəndənin səlahiyyəti qanunvericiliklə müəyyənləşdirilmiş formada tərtib olunmuş etibarnamə ilə təsdiq edilməlidir.

**"Zəyəm Texnologiyalar Parkı" ASC**

## "Gəncə-Ekspress" ATSC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da "Gəncə-Ekspress" ATSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1."Gəncə-Ekspress" ASC-nin 2022-ci il üçün maliyyə - təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

Yığıncaqda səhmdarların iştirakı vacibdir.

Əlaqə telefonları- 022 255 05 82, 022 255 78 45.

Ünvan- Gəncə şəhəri, Ələkbər bəy Rəfibəyli küçəsi 14.

***İdarə heyəti***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

öz gəmilərinin yanğın detektorlarını test etmək üçün cihazların satın alınması məqsədilə "AM083" nömrəli

## Açıq Müsabiqə Elan Edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il mayın 18-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1164.

Ünvan- AZ1003. Bakı,M.Useynov küçəsi 2.

## "Loğman" ASC səhmdarlarının nəzərinə!

15 iyun 2023-cü il saat 11.00-da "Loğman" ASC səhmdarlarının növbəti ümumi yığıncağı Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Davud Aslan küçəsi 2 nömrəli ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. ASC-nin 2022-ci il üçün maliyyə hesabatı.
2. Cari məsələlər.

***İdarə heyəti***

## “ASELSAN” Azərbaycana Avtomobil Yollarının Ağıllı Nəqliyyat Həllərini gətirir

**“ASELSAN” Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) tələbi ilə magistral yollarda nəqliyyat vasitələrinin ölçü və çəki pozuntularını aşkar etmək üçün yeni layihə hazırlayıb. 2023-cü il mayın 8-də keçirilən açılış mərasimində “ASELSAN”ın idarə heyətinin sədri və direktoru professor Dr. Haluk GÖRGÜN, “ASELSAN”ın direktor müavini və UGES-in sektor müdiri, professor Dr. Mehmet ÇELİK, “ASELSAN”–Bakü şirkətinin direktoru Özgür KÜRÜM, eləcə də Türkiyənin Prezident Aparatının Maliyyə İdarəsinin müdiri, professor Dr. Göksel AŞAN, Şimali Kipr Türk Respublikasının Bakı nümayəndəsi Səfir Ufuk TURGANER, Türkiyənin Azərbaycandakı səfirliyinin ticarət müşavirliyinin baş müşavirləri, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəsmiləri və Azərbaycan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəsmiləri iştirak ediblər. “ASELSAN”ın idarə heyətinin sədri və direktoru cənab professor Dr. Haluk GÖRGÜN:**



“Komandalarımızın gərgin və fədakar zəhməti sayəsində biz layihəmizi nəzərdə tutulan vaxtdan daha tez Bakı yaxınlığında, Tağıyev qəsəbəsində istifadəyə verdik. Azərbaycanda, ümumilikdə, müxtəlif məntəqələrdə həyata keçiriləcək və Bakıda bir mərkəzdən canlı izlənilə və idarə oluna bilən bu texnologiyanı qısa müddət ərzində istifadəyə verdiyimiz üçün çox şadıq.

Bu layihə ilə avtomobil yollarında nəqliyyat vasitələrinin dayanmasına və ya sürətinin azalmasına ehtiyac qalmadan, çəki ölçülərək nəqliyyat sıxlığı azalacaq və daha səmərəli nəqliyyat axını təmin ediləcək” dedi.

Yüksək dəqiqliklə nəqliyyat vasitələrinin aşkarlanması – təsnifatı və dövlət qeydiyyat nişanının tanınması imkanlarını təmin etməyi və müxtəlif məntəqələrdə quraşdırılmasını hədəfləyən layihə ilə nəqliyyat sıxlığının real vaxt rejimində izlənilə bilinməsi, eyni zamanda nəqliyyatın idarə edilməsinə töhfə verərək yolun texniki qulluq xərclərinin azaldılması hədəflənir.

Daha az operator və avadanlıq tələb etdiyi üçün sərfəli bir həll olaraq təqdim edilən sistemlə həddindən artıq yüklənmiş avtomobillər də aşkarlanaraq bu nəqliyyat vasitələrinin yollara və ya körpülərə zərər verməsinin qarşısı alınacaqdır. İnsanlara və planetə xidmət edən texnologiyası ilə hər sahədə davamlılıq fəaliyyətlərini sürətləndirən “ASELSAN” bu layihə ilə həddindən artıq yüklənmiş avtomobilləri aşkar edərək hava çirklənməsinin və istixana qazı emissiyalarının da azaldılmasını təmin edir.



“ASELSAN” haqqında qlobal texnologiya lideri kimi, biz ixtisaslı insan resurslarımıza sərmayə qoyaraq, bütün dünyada istifadəçilərimizə yeni təcrübələr təqdim etməklə davamlı və ruhlandırıcı şəkildə böyüməyə davam edirik. Bir radio stansiya ilə başlayan səyahətimiz bu gün müdafiə və təhlükəsizlik sahəsində 500-dən çox müxtəlif məhsul və həllər əldə etdi. Uzunmüddətli inkişaf strategiyamız bizə perspektivli bazarlarda investisiya imkanlarından istifadə etməyə imkan verdi. Hər yeni günü biz 80-dən çox ölkədə bizi ruhlandıran istifadəçilərimiz tərəfindən dəstəklənən texnologiyanın hüdudlarına meydan oxumağa təşviq edən yeni ideyalar və xəyallarla başlayırıq. Biz sonsuz motivasiya ilə daha yaxşı bir planet üçün səy göstərməyə davam edəcəyik.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

## Azərbaycan Dövlət Pedaqoji Universiteti

qeyd olunan kafedralar üzrə vakant professor-müəllim vəzifələrini tutmaq üçün

## MÜSABİQƏ ELAN EDİR

Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrası
Müasir Azərbaycan dili kafedrası
Azərbaycan dilçiliyi kafedrası
Ədəbiyyat kafedrası
Ədəbiyyatın tədrisi texnologiyası kafedrası
Xarici dillər mərkəzi (ingilis, rus və fransız dilləri üzrə)
Azərbaycan tarixi kafedrası
Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi texnologiyası kafedrası
Fəlsəfə və sosial elmlər kafedrası
Ümumi pedaqogika kafedrası
Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrası
Ümumi cografiya kafedrası
Riyaziyyat və onun tədrisi texnologiyası kafedrası
Riyazi analiz kafedrası
Kompüter elmləri kafedrası
Cəbr və həndəsə kafedrası
Ümumi kimya və kimyanın tədrisi texnologiyası kafedrası
Analitik və üzvi kimya kafedrası
Biologiya və onun tədrisi texnologiyası kafedrası
Fiziologiya kafedrası
Məktəbəqədər təhsilin pedaqogikası kafedrası
Pedaqoji psixologiya kafedrası
Ümumi psixologiya kafedrası
Xüsusi təhsil kafedrası
İbtidai təhsilin pedaqogikası kafedrası
Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrası
Fizikanın tədrisi texnologiyası kafedrası
Ümumi fizika kafedrası
Əməyin texnologiyası kafedrası
Musiqi və onun tədrisi texnologiyası kafedrası
Təsviri incəsənət və onun tədrisi texnologiyası kafedrası
Fiziki tərbiyə və çağrışaqədər hazırlığın tədrisi texnologiyası kafedrası
Təhsil menecmenti kafedrası.

Müsabiqədə elmi-pedaqoji və ya istehsalat təcrübəsinə, müvafiq elmi ad və dərəcələrə malik olan şəxslər iştirak edə bilərlər. Müraciət edən namizədlərdən aşağıdakı şərtlər tələb olunur:

- kompüterdən (office proqramları – word, excel, power point, microsoft teams və s.) istifadə bacarığı;
- tədrisin onlayn formada təşkili üzrə bacarıqlar;
- Azərbaycan, rus və ingilis dillərində tədris bacarığı;
- yüksək peşə-ixtisas və mənəvi keyfiyyətlər.

Sənədlər bu elan qəzetdə və www.adpu.edu.az saytında dərc olunan gündən başlayaraq 30 gün müddətində saat 9.00-dan 17.00-a qədər ADPU-nun İnsan resursları şöbəsində qəbul edilir.

Əlaqə telefonu- (012) 498-08-16.
E-poçt: office@adpu.edu.az
www.adpu.edu.az
Ünvan-AZ-1000. Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 68.

***REKTORLUQ***

## “Azərsu” Açıq Səhmdar Cəmiyyəti

“Neftçala rayonunun 11 və Salyan rayonunun 6 yaşayış məntəqəsinin içməli su təchizatının yaxşılaşdırılması” işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən “Azərsu” ASC-nin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsindən (əlaqələndirici şəxs- Abışev Murad Çingiz oğlundan, telefon-+ 99 412 431 47 67/87 – daxili 1087 E-mail: murad.abishev@azersu.az və Musayev Məmmədyar Ağa oğlundan , telefon- + 99 412 431 47 67 – daxili 2288, E-mail: mammadyar.musayev@azersu.az) ala bilərlər.

İşlərin qısa təsviri - su şəbəkəsinin tikintisi və digər əlaqədar işlər.

Tenderdə iştirak haqqı 500,00 (beş yüz) manatdır.
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Təşkilat - “Azərsu” Açıq Səhmdar Cəmiyyəti
VÖEN - 9900001751
Bank - “Kapital Bank” ASC-nin 1 saylı Nəsimi filialı
Kod -200112
VÖEN - 9900003611
Yerli valyutada hesab nömrəsi
AZ65AIIB33070019441100216111
Xarici valyutada hesab nömrəsi
AZ55AIIB33170018401100216111
M/h - AZ37NABZ01350100000000001944
SWIFT AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

Tenderdə iştirak etmək üçün ərizə.

İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.

Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır).

Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Tender iştirakçılarının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri.

Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).

Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.

Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.

İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir).

Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış.

Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış (ədliyyə nazirliyindən alınmış müvafiq arayış).

Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış.

Azərbaycan Respublikasının dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üçün verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.

Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir).

Mühasibat balansları, mənfəət və zərər haqqında hesabat.

Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa).

Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (son beş il üçün ( 2018-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 10 milyon manatdan az olmayan, oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) baş podratçı kimi ən azı iki sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və təsdiqedici sənədlər, son beş il ( 2018-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində ən azı 8 milyon manat dövriyyə tələb olunur və TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər. Tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndində tələb olunan sənədlər ən azı bir müəssisə tərəfindən təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 5 iyun 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 14 iyun 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətində 16 iyun 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

## “Bakı Polad Burazlar” ASC səhmdarlarının nəzərinə!

“Bakı Polad Burazlar” ASC səhmdarlarının Bakı şəhəri, Araz küçəsi 8 nömrəli ünvanda (“Ulduz” metro stansiyasının yaxınlığı), 30 iyun 2023-cü il saat 11.00 –da ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. Cəmiyyətin 2022-ci il üçün maliyyə təsərrüfat fəaliyyətinə aid idarə heyətinin hesabatı.
2. Cari məsələlər.

Telefon- (012) 567-54-95.
Ünvan- Bakı şəhəri, Araz küçəsi 8.

Səhmdar ümumi yığıncaqda iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsi ilə həyata keçilə bilər. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyənləşdirilmiş qaydada tərtib edilmiş etibarnaməyə malik olmalıdır.

Ümumi yığıncaqda iştirak edən səhmdar və ya nümayəndəsi şəxsiyyətini təsdiq edən sənədin əslini (nümayəndə olduqda isə etibarnaməsinin təsdiq edilmiş surətini) təqdim etməlidir.

## “Bakı Avtonəqliyyat-2” ASC səhmdarlarının nəzərinə!

Azərbaycan Respublikası Mərkəzi Bankının “səhmdarların ümumi yığıncağının məsafədən (onlayn qaydada) keçirilməsinə dair” təlimatına uyğun olaraq 26 iyun 2023-cü il saat 11.00-da “Bakı Avtonəqliyyat-2” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağının onlayn iclası keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. “Bakı Avtonəqliyyat -2” ASC-nin 2022-ci il üçün maliyyə hesabatının təsdiq edilməsi.
2. Digər məsələlər.

Ümumi yığıncağın onlayn qaydada keçiriləcək iclasına qoşulmaq qaydaları:

-İnternetə qoşulmuş kompüter, noutbuk, planşet və ya smart telefona “Zoom” proqramını yüklədikdən sonra aşağıdakı ID kodu və şifrə vasitəsilə daxil olmaq mümkündür: ID: 208 174 7069, Şifrə: Zc2aQS.

Əlaqə telefonu- +99455 371 37 74.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

***İdarə heyəti***

## B İ L D İ R İ Ş

Şərqi Zəngəzur İqtisadi rayonunda 1 saylı Bərpa,Tikinti və İdarəetmə Xidməti tərəfindən Cəbrayıl rayonunun Horovlu kənd yaşayış məntəqəsinin yenidənqurulması layihəsi çərçivəsində kəndin ümumi şaquli planlaşdırılması üçün torpaq işlərinin satın alınması ilə bağlı keçirilmiş açıq tenderdə tələb olunan sənədlərin təqdim edilməsinin son tarixi və vaxtı 18 may 2023-cü il saat 10.00-a, təkliflərin son təqdim olunma tarixi və vaxtı 2 iyun 2023-cü il saat 17.00-a, zərflərin açılış tarixi və vaxtı isə 5 iyun 2023-cü il saat 10.00-a dəyişdirilmişdir.

## “Bakışəhərtikintimexanikləşdirmə” ASC səhmdarlarının nəzərinə!

22 iyun 2023-cü il saat 11.00-da “Bakışəhərtikintimexanikləşdirmə” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**
1. 2022-ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı.
2. Digər məsələlər.

Telefon-563-41-00.
Ünvan- Bakı, Binəqədi rayonu, Əhməd Rəcəbli küçəsi 320, “Elit” ticarət mərkəzinin yaxınlığı.

## “Bakıxanov-Çörək” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da Bakıxanov-Çörək” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:
1. Cəmiyyətin 2022-ci il üçün illik hesabatının təsdiqi.
2. 2022-ci ilin nəticələri üzrə dividendlərin verilməsi.
3.Cəmiyyətin müfəttişinin seçilməsi.

Səhmdarlar ümumi yığıncağın gündəliyi ilə bağlı materiallarla Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bəşir Bünyadov küçəsi 26 B nömrəli ünvanda iş günləri saat 10.00-dan 16.00-dək tanış ola bilərlər.

Səhmdar ümumi yığıncaqda iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirir. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyənləşdirilmiş qaydada tərtib edilmiş etibarnaməyə malik olmalıdır.

Ünvan - Bakı, Bakıxanov qəsəbəsi, Mehmandarov küçəsi 37A, Badukubə şadlıq evi.

***Müşahidə şurası***

## “AZİNŞAAT SERVİS” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da “Azinşaat Servis” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1.Səhmdar cəmiyyətin idarəetmə orqanlarının 2022-ci il üçün illik hesabatı.
2.Digər məsələlər.

Telefon- (012) 566-20-12.
Ünvan-Bakı şəhəri, Keşlə qəsəbəsi 4, Köndələn küçəsi 1.

Xalqın qəzeti!
# Xalq qəzeti
№ 98 (30214) 12 may 2023-cü il, cümə
veb-sayt: www.xalqqazeti.az

*Sosial şəbəkələrdən seçmələr*

## Hər şey qədərində gözəldir

**Filologiya üzrə fəlsəfə doktoru Aynur Familqızı dünən özünün "Facebook" səhifəsində yeni bir maraqlı paylaşım edib:**



"Bir alimdən soruşlar ki, zəhər nədir? Alim demişdir: "Ehtiyacınızdan artıq olan hər şey zəhərdir. Artıq dərəcədə güc, dincəlmək, yemək-içmək, qorxu, sakitlik, hətta aşırı nifrət, sevgi, nəşə, ehtiras da zəhər olmaqla yanaşı, həddindən çox yaxşılıq özü də zərərdir…"

Bu məqamda dahi Nizaminin məşhur misralarını xatırlamamaq olmur:

***Sözün də su kimi lətafəti var,***
***Hər sözü az demək daha xoş olar.***
***Bir inci saflığı varsa da suda,***
***Artıq içiləndə dərd verir o da…***

Hörmətli Aynur xanımın bu paylaşımına bircə onu əlavə etmək istərdik ki, həqiqətən, dinimiz də, əxlaqımız da hər zaman artıq olan hər bir şeyin, xüsusilə tamah və israfın əleyhinə olmuşdur. Atalarımız əbəs yerə deməyiblər ki, hər şey qədərində gözəldir!

***M.HACIXANLI, "Xalq qəzeti"***

## Zəlzələ yıxanı protez dikəldir

**Türkiyənin Ədirnə vilayətində yerləşən Trakiya Universitetinin (TÜ) tələbələri fevralın 6-da baş vermiş dağıdıcı zəlzələ zamanı ağır xəsarətlər alanlar üçün protez ayaqlar düzəldiblər.**



Sınaq üçün ilk protezdən zəlzələdən sonra sağ ayağını itirən 56 yaşlı Vilhel Yıldırım istifadə edib. O, protezlə yeriməyi öyrənmək üçün daha iki ay xəstəxanada qalacaq.

Sağlamlıq Xidmətləri Peşə Məktəbinin direktoru dr. İrfan Coşqun zəlzələdən zərərçəkənlər üçün düzəldilən protez ayaqların Ədirnə Universitetinin ortopediya və protez laboratoriyasında hazırlandığını bildirib.

Universitetin Ortopedik Protez və Ortopediya Proqramı üzrə müəllim Hayati Kaya isə protezin hazırlanma prosesini izah edərək bildirib ki, onun davamlı və yüngül olması üçün tərkibində karbon və qətran olan məhsullardan istifadə olunur. Bu protez ayaqlar istifadəçinin ehtiyaclarına uyğun olaraq xaricdən gətirilən mexanizmlərlə təchiz edilir.

***Fidan HÜQUQQIZI, "Xalq qəzeti"***

*İdman xəbərləri*

## Bakıda atəş yarışında Türkiyə ilk medalını qazanıb

**Bakıda atıcılıq üzrə keçirilən "Dünya Kuboku 2023"ün üçüncü yarış günündə qarışıq komandalar 10 metr məsafəyə pnevmatik tüfəng və tapançadan atış yarışlarında güclərini sınayıblar.**



Türkiyə komandası turnirdə ilk medalını qazanıb. Pnevmatik tapançadan atəş açma yarışlarında Şimal Yılmaz və İsmail Keleş cütlüyü İtaliya komandasını 17:9 hesabı ilə üstələyərək bürünc medala sahib olub. Hindistanlı Divya Tadigol Subaraju və Sarabjot Sinqh cütlüyü serbiyalı Zorana Arunoviç və Damir Mikeç duetini 16:14 hesabı ilə məğlub edərək qızıl medal qazanıb.

Qarışıq komandalar arasında isə pnevmatik tüfəngdən atəş üzrə finala düşən Çinin iki komandasından biri (Yuting Hvang və Lihao Şenq) qızıl, digəri (Jiling Vanq – Aoran Yanq) gümüş medala sahib olub. Həmyerlilər finalı 16:14 hesabı ilə tamamlayıblar. Çexiya komandasını təmsil edən Aneta Brabçova - Frantisek Smetana cütlüyü Macarıstan təmsilçilərindən (17:11) önə çıxaraq bürünc medala yiyələnib.

Qeyd edək ki, mayın 9-da Bakı Atıcılıq Mərkəzində start götürən yarış 6 gün davam edəcək.

## İki boksçumuz dünya çempionatının finalında

**Özbəkistanın paytaxtı Daşkənddə keçirilən dünya çempionatında Azərbaycan millisinin iki boksçusu bu gün yarımfinalda mübarizə aparacaq.**



Yığmamızın üzvlərindən Alfonso Dominqes (86 kq) yarımfinala gedən yolda Şoxcahon Abdullayev (Özbəkistan) üzərində 5:2 hesablı qələbə qazanıb. Təcrübəli rinq ustası finala vəsiqə uğrunda gürcüstanlı Georgi Kuşitaşvili ilə üz-üzə gələcək.

Məhəmməd Abdullayev (+92 kq) isə dörddəbir final döyüşündə Nikoloz Beqadzeni (Gürcüstan) 5:0 hesabı ilə məğlub edib. Boksçumuz bu mərhələdə kubalı Fernando Lopes Arzolanın öhdəsindən gələ biləcəksə həlledici mərhələyə çıxacaq.

Onu da qeyd edək ki, hər iki boksçumuz yarımfinala vəsiqə qazanmaqla özlərinə ən azı bürünc medalı da təmin ediblər.



## Paraüzgüçümüz dünya rekorduna imza atıb

**Almaniyanın paytaxtı Berlin şəhərində keçirilən paraüzgüçülük üzrə dünya seriyası yarışında iştirak edən üçqat paralimpiya çempionu Raman Saley turnirin təsnifat mərhələsində 200 metrəyə sərbəst üzmədə 01.58.36 nəticə göstərərək dünya rekorduna imza atıb. Bununla da R.Saley yarışın final mərhələsinə vəsiqə qazanıb.**

Eyni zamanda, idmançımız 100 metrəyə butterfly üsulu, millinin digər üzvü, paralimpiya çempionu Vəli İsrafilov isə 100 metrəyə brass üsulu ilə üzmədə finala vəsiqə qazanıblar.

***Leyla QURBANOVA, "Xalq qəzeti"***

## Misirdə su polosu yığmamız qızıl medal qazanıb

**Azərbaycanın vaterpol üzrə yeniyetmələrdən ibarət müxtəlif yaş qruplarında komandaları Misirin Qahirə şəhərində keçirilən klublararası beynəlxalq turniri yüksək nəticələrlə başa vurublar.**



Yarışda 2009-2010-cu il təvəllüdlü idmançılarımız bütün rəqiblərini geridə qoyaraq qızıl medal qazanıblar. 2008-ci il təvəllüdlü yeniyetmələrdən ibarət komandamız isə yarışın gümüş mükafatçısı olub.

## Süni intellekt məktubları cavablandırıb



**Araşdırmalar göstərir ki, süni intellekt vasitələri işçilərin məhsuldarlığını və keyfiyyətini artırır. Hətta bir çox sahələrdə insanları əvəz edir. Artıq şirkətlərdə süni intellektdən istifadəyə geniş yer verilir. Belə şirkətlərdən biri də İngiltərənin enerji şirkəti "Octopus Energy"-dir. Belə ki, şirkətin CEO-su Qreg Cekson süni intellektin təkbaşına 250 əməkdaşın işini gördüyünü açıqlayıb.**

Şirkət süni intellektli texnologiyanı müxtəlif korporativ sistemlərə inteqrasiya etmək üçün təcrübələr aparıb. Fevral ayından etibarən müştərilərin e-poçtlarına süni intellekt cavab verməyə başlayıb. Yeni texnologiya sayəsində müştərilərin elektron məktublarının üçdə birindən çoxuna cavab verilib ki, bu da, təxminən, 250 nəfərin gördüyü işə bərabərdir.

Diqqət çəkən məqam isə odur ki, müştərilər sualların canlı ekspertlərdən daha yaxşı cavablandırıldığını bildiriblər. Belə ki, təlim keçmiş işçilər arasında müştəri məmnuniyyəti 65 faiz təşkil etsə də, süni intellektlə bu göstərici 80 faiz olub.

***Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"***

*Fotoda əbədiləşən an*

## Xoşbəxt an quş kimidir...



**"Facebook"da bu fotonu Jalə Əhmədova adlı bir ziyalı xanım yerləşdirib. Paylaşımında isə cəmi bir cümlə yazıb: "Xoşbəxt an quş kimidir, uçub gedir, amma onun xatirəsi ürəyi istiləşdirir..."**

Bu gözəl təbiət lövhəsi, sanki, mənə həyatın nə qədər əsrarəngiz olduğunu pıçıldadı. Yadıma böyük şairimiz Bəxtiyar Vahabzadənin bu dəyərli misraları düşdü:

***Həyatımın qayğısız çağlarında***
***Qədrini bilməmişəm.***
***Hələ nə var ki,***
***ömrüm qabaqdadır,- demişəm.***
***Otuzdan adlayınca,***
***gündə otuz min kərə***
***Başımı yelləyirəm***
***hədər gedən illərə.***
***Səndən doymaq olarmı,***
***həyat, sən nə şirinsən!***
***Ancaq hamının deyil,***
***Sən həyatın qədrini bilənlərinsən!***

Əziz oxucu! Gəlin hər birimiz həyatın hər anının qədrini bilənlərdən olaq!

***M.QARAÇAYLI, "Xalq qəzeti"***



## "Neftçi" futzal finalında

**Futzal üzrə Yüksək Liqada ikinci finalçı məlum olub.**

Pley-off mərhələsinin üçüncü turunun oyunu Bakı İdman Sarayında "Baku Fire" və "Neftçi" komandaları arasında keçirilib. Həlledici görüşdə 6:3 hesabı ilə qələbə qazanan "Neftçi" İK finala adlayıb.

Qeyd edək ki, yarımfinalın digər görüşündə "Araz Naxçıvan" "Record"a bir oyunda qalib gəlib, ikinci oyun isə rəqib meydana çıxmadığı üçün baş tutmayıb. Bununla da, Naxçıvan təmsilçisi texniki qələbə sayəsində finala yüksəlib.

***L.AZAD, "Xalq qəzeti"***

*Proqnoz*

## Hava "qaşqabaqlı" olacaq

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, mayın 12-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 10-14° isti, gündüz 16-20° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 766 mm civə sütunu olacaq. Nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu bölgələrdə gecə 12-16° isti, gündüz 20-25° isti, dağlarda gecə 3-8° isti, gündüz 7-12°, bəzi yerlərdə 15° isti olacaq.



***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5182
SİFARİŞ 1078
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI

Çapa imzalanmışdır 00:00